

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Azərbaycan - müxtəlif etnos və millətlərin yaşadığı TOLERANT ÖLKƏ!



6

SƏS

№ 139 (7064)

6 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Bakıda yol infrastrukturu yenilənir



2

*Prezident İlham Əliyev "Cavanşir" körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak edib*

# Kədərli Olimpiada




4

## Britaniyada vətəndaş müharibəsi?



10

## ANA SÜDÜ: kim desə ki, əvəzi var, inanmayın!



8

## "950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb"



5

## Yeni nəsildə daha çox XƏRÇƏNG RİSKİ



15

## İran-İsrail "müharibəsi": Vur - vurum...



5

# Bakıda yol infrastrukturu yenilənir





***Avqustun 5-də Azərbaycan Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonu ərazisində "Cavanşir" körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "Azəryolelmitədqiqatlayihə" İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.***

## *Prezident İlham Əliyev "Cavanşir" körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak edib*

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı "Cavanşir" körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.



Məlumat verildi ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq əraziləri salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

Xatırladaq ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən, uzunluğu 202 metr, eni 17,3 metr olan "Cavanşir" yolötürücüsü dəmir yolu vasitəsilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdi. Həmin ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab vermədiyi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdi.

# Moldova mediası azərbaycanlıların Ermənistandan deportasiyasının tarixindən yazır

"Azərbaycanlıların Ermənistandan bir əsrə yaxın davam edən deportasiyası Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən biridir və bu günədək hər iki xalq üçün yük olaraq qalır." AZƏRTAC xəbər verir ki, bu fikir Moldovanın "Noi.md" xəbər saytında dərc olunan məqalədə yer alıb.

Moldovalı jurnalistin yazdığı araşdırma məqaləsində vurğulanır ki, tarixçilər XX əsrdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyasının üç əsas dövrünü müəyyən ediblər: 1918-1920-ci, 1948-1953-cü və 1988-1991-ci illər.

Vurğulanıb ki, 1918-1920-ci illərdə azərbaycanlı əhalinin Ermənistandan qovulmasına və soyqırımına səbəb bədnam "böyük Ermənistan"ın yaradılması konsepti olub. O dövrün erməni cəmiyyətində etnik əhatə dairəsini genişləndirmək istəyi, mədəni üstünlük ideyası və digər xüsusi hüquqlar hakim idi. Sonralar (1918-ci ilin mayında) Cənubi Qafqazda ilk erməni dövlətinin tərkibinə daxil olacaq İrəvan quberniyasının qəzalarında baş vermiş faciəli hadisələr praktik olaraq Şimali Azərbaycanın şərqində, Bakı quberniyasında törədilmiş hadisələrlə üst-üstə düşürdü. 1918-ci ilin yazında bolşeviklər və Erməni İnqilabi Federasiyasının yaraqlıları - daşnaklar azərbaycanlı əhaliyə qarşı soyqırımı törədiblər.

Jurnalist erməni daşnaklarının törətdikləri cinayətləri təfsilatı ilə izah edib. O qeyd edib ki, İrəvan quberniyasında azərbaycanlı əhaliyə qarşı genişmiqyaslı zorakılıqlar erməni tarixçilərinin məqalələrində də öz əksini tapıb. Erməni tarixçisi A.Lalayan yazır ki, 1918-1920-ci illərdə Daşnaksütyun (Erməni İnqilabi Federasiyası) diktaturası dövründə bütün qeyri-erməni əhali, Ermənistanda yaşayan azərbaycanlılar süngülərlə öldürülüb, digərləri şəhərlər və kəndlər yerlə-yeksan olunmaqla yurd-yuvalarından çıxarılmağa məcbur edilib.

Lalayan, həmçinin vurğulayır ki, Daşnaksütyunun ölkə rəhbərliyində olduğu 30 ay ərzində Ermənistanın türk (Azərbaycan) icması 77 faiz azalıb.

Ümumiyyətlə, 1918-1920-ci illərdə birinci Ermənistan Respublikasının mövcudluğu erməni siyasətçilərinin dövlətin gücündən ölkəni idarə etmək üçün deyil, azərbaycanlı əhalini didərgin salmaq, onların əmlakını ələ keçirmək üçün necə istifadə etdiklərinin əyani nümayişi olub. 1948-1953-cü illərdə - artıq sovet dövründə azərbaycanlılar geri dönmək ümidi olmadan Ermənistanı tərk etməkdə idilər. Bu proses İkinci Dünya müharibəsindən sonra daha da gücləndi və Sovet İttifaqı dağılanadək daimi tendensiya olaraq qaldı. Məqalə rus və rumın dillərində dərc edilib.


NOI +19°C $ 17.71 € 19.10

Как депортировали азербайджанцев с территории нынешней Армении в XX веке

31 июл. 18:30 В Мире 1531 0

**Депортация азербайджанцев из Армении, продолжавшаяся на протяжении почти целого столетия, является одной из причин армяно-азербайджанского конфликта и остается тягостным бременем для обоих народов по сей день.**

Историки выделяют три основных периода массовой депортации азербайджанцев из Армении в XX веке: 1918-1920; 1948-1953; 1988-1991

# Azərbaycan qüdrətli ölkə və etibarlı tərəfdaşdır





## Prezident İlham Əliyev bir sıra ölkələrin Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib



Prezident İlham Əliyev dünən Burkina Fasonun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vinta Somenin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Azərbaycanın Burkina Faso ilə münasibətlərin hərtərəfli inkişafında maraqlı olduğunu deyən Prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu bildirib. Dövlətimizin başçısı iqtisadi-ticari sahədə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd edib, Azərbaycanın Burkina Fasoya investisiya yatırması imkanlarının araşdırılmasının önəmini vurğulayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Azərbaycan Prezidenti, ilk növbədə, BMT-də, Qoşulmama Hərəkatında qarşılıqlı dəstəyin göstərilməsinin vacibliyini qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğulayaraq, ölkəmizin bu dövrdə xüsusi diqqət yetirdiyi mövzulardan birinin də müstəmləkəçilik, neomüstəmləkəçilik və bununla mübarizə məsələsinin olduğunu bildirib. Bu xüsusda Fransanın həyata keçirdiyi neomüstəmləkəçilik siyasətinin ikrah hissi doğurduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın bu siyasətə qarşı öz səsini ucaltdığını və qanlı müstəmləkəçilik tarixi olan Fransanın bu gün də əsarət altında saxladığı xalqlara müstəqillik, azadlıq tələb etdiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın qeyri-hökumət təşkilatlarının da bu istiqamətdə beynəlxalq qeyri-hökumət hərəkatı çərçivəsində fəal iş apardığını bildirib.

Fransanın ölkəmizə qarşı qərəzli mövqeyindən danışan Prezident İlham Əliyev Azərbaycanın öz torpaqlarını işğaldan azad edəndən sonra Fransanın əsl simasını nümayiş etdirdiyini, BMT-də, Avropa İttifaqında ölkəmizə qarşı ədalətsiz şəkildə fəaliyyət həyata keçirdiyini qeyd edib. Söhbət zamanı dövlətimizin başçısı Azərbaycanın Afrika İttifaqı yanındakı səfirinə Afrika ölkələri ilə daha sıx münasibətlərin qurulması, onlarla müxtəlif istiqamətlər üzrə ikitərəfli formatda konkret əməkdaşlıq məsələlərinin planlaşdırılması barədə də təlimat verildiyini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir, ilk növbədə, ölkəsinin lideri Brahim Traorenin salamlarını, eyni zamanda, dövlətimizin başçısının yenidən Prezident seçilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qoşulmama Hərəkatına uğurlu sədrlik etməsi münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdırıb. Dövlətimizin başçısı salamlara və təbriklərə görə minnətdarlığını bildirib, onun da salamlarını Burkina Fasonun liderinə çatdırmağı xahiş edib. Səfir Vinta Some Azərbaycan ilə ölkəsinin strateji səviyyədə hərtərəfli əməkdaşlığa hazır olduğunu, yaxın vaxtlarda geniş tərkibli Azərbaycan nümayəndə heyətinin Burkina Fasoya səfər edəcəyini vurğulayıb. O, ölkələrimiz arasında enerji, kənd təsərrüfatı, təlim, təhsil, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qeyd edib.

Vinta Some ölkəsinin Azərbaycanın müstəmləkəçiliyə qarşı mübarizədə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib. O, Afrikanın sahil regionunda baş verən proseslər haqqında məlumat verib, artıq qitədə panafrikanizm hərəkatının güclənərək yeni vüsət aldığını vurğulayıb. Səfir COP29-un təşkilində Azərbaycana uğurlar arzuladı və Burkina Fasonun da bu tədbirdə müvafiq səviyyədə təmsil olunacağını diqqətə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mayls Robert Armiteycin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib, daha sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev səfirin ölkəmizə səfərlər edəcəyinə və Azərbaycanın hökumət nümayəndələri ilə əlaqələrimizin gələcək inkişafı məsələlərinə dair səmərəli müzakirələr aparacağına ümidvar olduğunu bildirib. Azərbaycan Prezidenti ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, iqtisadi-ticari əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu vurğulayıb.

Siyasi münasibətlərə toxunan Prezident İlham Əliyev ölkələrimiz arasında səmərəli əlaqələrin olduğunu bildirib, lakin investisiya imkanlarından istifadə və ticarət dövriyyəsinin artırılması sahəsində əməkdaşlığın hələ də lazımi səviyyədə olmadığını qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirib ki, səfir fəaliyyətində bütün bu sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcək.

Səfir Mayls Robert Armiteyc Azərbaycanda olmağından böyük məmnunluq hissi keçirdiyini bildirib və qarşıda əlaqələrimizin genişləndirilməsi üçün görüləsi çox işin olduğunu qeyd edib. O, xüsusilə iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırıb.

Mayls Robert Armiteyc COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb. O, Azərbaycanın qısa vaxt ərzində COP29 Konfransının keçirilməsi üçün bütün zəruri hazırlıq işlərini gördüyünü məmnunluqla qeyd edib, ölkəmizin kiçik ada dövlətlərinə dəstəyinin, xüsusilə kiçik ada dövlətlərinin qarşıdan gələn Zirvə toplantısında iştirakı məsələsini xüsusi vurğulayıb. Səfir qeyd edib ki, Avstraliya regionda davamlı sülhün bərqərar olunmasında və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında maraqlıdır. Bu xüsusda Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirərək, artıq regionda sülhün mövcud olduğunu qeyd edib.

Prezident İlham Əliyev avqustun 5-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Pakistana dövlət səfərini məmnunluqla xatırlayan Azərbaycan Prezidenti ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyin çox xoş təsir bağışladığını deyib, bunun ölkələrimiz və xalqlarımız arasında dostluğu, qardaşlığı və tərəfdaşlığı nümayiş etdirdiyini bir daha vurğulayıb.

Dövlətimizin başçısı bu səfərin önəminə toxunaraq, əməkdaşlığımıza dair geniş sahələri əhatə edən məsələlərin müzakirə olunduğunu və sənədlərin imzalandığını məmnunluqla xatırlayıb. Prezident İlham Əliyev bu dövlət səfəri nəticəsində Azərbaycan-Pakistan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, səfər çərçivəsində müxtəlif sahələrdə, o cümlədən investisiya qoyuluşu və enerji sahələrində yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edildiyini vurğulayıb. Dövlətimizin başçısı Pakistana dövlət səfəri zamanı qəbul olunmuş qərarların, əldə edilmiş razılaşmaların və imzalanmış sənədlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin iş apardığını bildirib. Azərbaycan Prezidenti preferensial ticarət sazişinin önəmini qeyd edərək, bu sənədə yeni maddələrin əlavə edilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən işlərin həyata keçirildiyini vurğulayıb.

Prezident İlham Əliyev ərazilərimizin işğalına görə Pakistanın Ermənistan ilə diplomatik əlaqələr qurmamasını, hətta torpaqlarımızın azad edilməsindən və suverenliyimizin tam bərpa olunmasından sonra da bunu etməməsini bir daha əsl dostluğun və qardaşlığın təzahürü kimi yüksək qiymətləndirib. Dövlətimizin başçısı Pakistan rəhbərliyinin Vətən müharibəsi dövründə Azərbaycana göstərdiyi siyasi dəstəyin bizim üçün böyük önəm daşıdığını bir daha vurğulayıb.

Azərbaycan Prezidenti səfir Qasım Mohiuddinə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Pakistan Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Məhəmməd Şahbaz Şərifin səmimi salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da səmimi salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş edib. Ölkəmizə böyük məhəbbət hissi bəslədiyini qeyd edən səfir Azərbaycan kimi gözəl bir ölkədə Pakistanı təmsil etməkdən qürur hissi duyduğunu bildirib.

Səfir dövlətimizin başçısının Pakistana dövlət səfərini zamanı müəyyən olunmuş strateji əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib. O, Azərbaycanın Pakistana dəstəyini, xüsusən Cəmmu və Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun qaydada həllinə dair ölkəmizin ədalətli mövqeyinin önəmini vurğulayıb.

# Kədərli Olimpiada




## *Korrupsiya, siyasət və sosial problemlər idman bayramını məhv etdi*



***Parisdə keçirilən Yay Olimpiya Oyunları əvvəlcə Fransanın beynəlxalq arenada imicini gücləndirəcək, milyonlarla turisti ölkəyə cəlb edə və Fransa iqtisadiyyatını canlandıra biləcək böyük tədbir kimi nəzərdə tutulmuşdu. Lakin böyük gözləntilərə baxmayaraq, oyunlara hazırlıq tədbirin uğurlu keçəcəyini şübhə altına alan bir sıra ciddi problemlərlə üzləşdi.***

Maliyyə çətinlikləri, turistlərin az marağı, sponsorların kifayət qədər olmaması, həll olunmayan infrastruktur problemləri və digər çatışmazlıqlar, görünür, gələcəkdə Olimpiya Oyunlarının keçirilməsinə yanaşmaya ciddi yenidən baxılmasını tələb edəcək. Bu barədə DikGAZETE-də dərc olunmuş məqalədə yazılır.

Bütün bunlar isə Fransa və Avropanın nümunəvi imicinə böyük zərbə vurdu və Beynəlxalq Olimpiya Komitəsini (BOK) dünya idmanını təşkil edən qlobal qurum kimi nüfuzdan saldı. Olimpiadalar ənənəvi olaraq ev sahibi ölkə üçün əsas iqtisadi sürücü kimi qəbul edilirdi və məhz bu kontekstdə Paris 2024 Oyunlarının əhəmiyyətli investisiyalar cəlb edəcəyi və ölkənin turizm gəlirlərini artıracağı gözlənilirdi. Ancaq əslində hər şey daha da pisləşdi. İlkin hesablamalara görə, oyunlara hazırlıq xərcləri ilkin hesablamaları xeyli üstələyir. Olimpiadanın ümumi büdcəsi artıq səkkiz milyard avronu keçib ki, bu da ilkin olaraq elan ediləndən iki dəfə çoxdur.

Əsas xərc maddələrinə idman obyektlərinin tikintisi və müasirləşdirilməsi, təhlükəsizlik və nəqliyyat infrastrukturunun inkişafı, açılış və bağlanış mərasimlərinin keçirilməsi daxildir. Bütün bunlar dövlət büdcəsinə əhəmiyyətli maliyyə təzyiqi yaradır və ümumavropa iqtisadi və enerji böhranı səbəbindən onsuz da son dərəcə çətin vəziyyətdə olan Fransanın uzunmüddətli öhdəliklərini daha da artırır.

Başlanğıcda Olimpiya Oyunlarının əsas gəlir mənbələrindən biri kimi görünən turizm, məşhur turizm məkanı olan Paris kimi ciddi problemlərlə üzləşib, həddindən artıq sıxlıq və yüksək xidmətlər qorxusundan gözlənilən ziyarətçi axınını cəlb edə bilməyib. Otellərin, yeməklərin, nəqliyyatın, idman və əyləncə tədbirlərinə biletlərin əsassız olaraq bahalaşması fonunda xarici turistlər alternativ istiqamətlərə üstünlük verirlər ki, bu da Fransanın turizm sənayesi üçün əhəmiyyətli itkilərə səbəb olur.

Nəqliyyat sənayesində vəziyyət bundan yaxşı deyil: Air France ilin üçüncü rübündə aviabiletlərə tələbatın azalması səbəbindən 180 milyon avro itki proqnozlaşdırır. Turistlərə xidmət göstərən otellər, restoranlar və digər obyektlərdə də rezervasiyaların kəskin azalması müşahidə olunur ki, bu da onların maliyyə göstəricilərinə mənfi təsir göstərir. Olimpiya Oyunlarının təşkilatçıları üçün daha bir ciddi problem sponsorluğun kifayət qədər olmaması idi. Oyunların maliyyələşdirilməsində korporativ tərəfdaşların cəlb edilməsi həmişə mühüm rol oynayıb, lakin bu dəfə təşkilatçılar həvəsli donorlar və reklamçılar tapmaqda çətinlik çəkiblər.

İqtisadi qeyri-sabitlik və korporativ sponsorluq bazarında yüksək rəqabət şəraitində bir çox şirkətlər Olimpiadaya dəstək üçün əhəmiyyətli vəsait yatırmağa hazır deyillər və nəticədə təşkilatçılar kömək üçün milyarder Bernard Arnoya müraciət etmək məcburiyyətində qalıblar, o, oyunların təşviqi üçün 150 milyon avro sərmayə qoyub. Bu, təbii olaraq ictimaiyyətin tənqidinə səbəb olub və Olimpiya Oyunlarının getdikcə daha çox özəl sərmayələrə arxalandığı və yalnız seçilmiş bir neçə nəfərin əlçatan olan "lüks oyuna" çevrilməsi riski ilə bağlı müzakirələri qızışdırıb.

İnfrastruktur problemləri Olimpiya Oyunlarının təşkilatçıları üçün növbəti ciddi çağırışa çevrilib. İdman obyektlərinin tikintisinə və müasirləşdirilməsinə xeyli investisiya qoyulmasına baxmayaraq, onların əksəriyyəti oyunlar başlayandan sonra da yarımçıq qalmışdır. Ən parlaq nümunələrdən biri üzgüçülük yarışının keçirilməsinin planlaşdırıldığı Sena çayının vəziyyətidir. Çaydakı su hələ də çox çirklidir və bu, iştirakçılar və tamaşaçılar arasında ekoloji təhlükəsizliklə bağlı ciddi narahatlıq yaradır. Bundan əlavə, bir çox idman obyektlərinin, ilk növbədə, Olimpiya kəndi və stadionların tamamlanmasına və təcili və tamamilə modernləşdirilməsinə ehtiyac var.

### Yüksək xərclər və korrupsiya



Fransa fəal həmkarlar ittifaqları və tez-tez tətilləri ilə məşhurdur. Olimpiada zamanı Fransa hökumətinin siyasi və inzibati imkansızlığı səbəbindən sosial gərginliyin bu elementləri aqressiv şəkildə güclənib. Dövlət qulluqçularının, nəqliyyat işçilərinin və digər sənaye müəssisələrinin tətilləri artıq oyunların təşkilini xeyli çətinləşdirib və maddi-texniki təchizatı pozub. Bundan əlavə, paytaxtda və ölkədə ümumi sosial narazılıq Olimpiadanın keçirilməsinin yüksək xərcləri və hər şeydən əvvəl korrupsiya ilə bağlıdır.

Bir çox fransızlar sosial ehtiyaclar üçün istifadə oluna biləcək oyunlara hazırlıq üçün külli miqdarda vəsaitin xərclənməsindən narazı olduqlarını bildirirlər. Bu, təşkilatçılar üçün əlavə çətinliklər yaradır ki, onlar Olimpiya Oyunlarını uğurla keçirmək istəyi ilə insanların sosial ehtiyaclarını ödəmək arasında balans tapmalıdırlar.

Olimpiya Oyunlarında kütləvi tədbirlər kontekstində təhlükəsizlik məsələləri getdikcə aktuallaşır. Fransa, bir çox digər Avropa ölkələri kimi, əlavə təhlükəsizlik tədbirləri tələb edən terror təhlükələri ilə üzləşir, lakin olimpiya təşkilatçıları və Fransa hakimiyyət orqanları iğtişaşlara, terror hücumlarına və digər cinayət əməllərinə səbəb ola biləcək təhdidlərin qarşısının alınmasında indiyədək ləng davranıblar.

Bütün ekspertlər Fransa kəşfiyyatının və polisinin effektivliyinə əmin deyillər ki, bu da Oyunların ziyarətçiləri və iştirakçılarının narahatlığına səbəb olur. Olimpiya idmançılarının və tamaşaçıların təhlükəsizliyinin təmin edilməsi təşkilatçıların prioritet vəzifələrindən biridir, lakin artan terror təhlükəsi və sosial qeyri-sabitlik şəraitində bu, daha da çətinləşir. Təşkilatçılar idman zalının girişlərində gücləndirilmiş təhlükəsizlik yoxlamaları, baqaj və şəxsi əşyaların axtarışı, mümkün təhlükələrin monitorinqi və qarşısının alınması üçün xüsusi texnologiyalardan istifadə də daxil olmaqla, oyunların hər mərhələsində müxtəlif təhlükəsizlik mexanizmlərini tətbiq ediblər. Lakin daha çox vitrin donu olan bütün bu hərəkətlər miqrantların və evsizlərin qanunsuz və sərt şəkildə deportasiyası kimi bir çox cəhətdən nasist Almaniyasının təcrübələrini xatırladan addımlara səbəb olub.

Parisdə Olimpiya Oyunlarına hazırlıq təşkilatçıların dürüstlüyünü və şəffaflığını şübhə altına alan irimiqyaslı korrupsiya qalmaqallarından da kənarda qalmayıb. İdman obyektlərinin, nəqliyyat infrastrukturunun və turizm zonalarının tikintisi və modernləşdirilməsi üçün keçirilən bir çox tenderlər Fransa hökuməti, şəhər və regional hakimiyyət orqanları tərəfindən korrupsiya və vəsaitlərin sui-istifadəsi iddiaları ilə müşayiət olunub. Aİ ölkələrində uzun müddətdir davam edən korrupsiya iddiaları təşkilatçıların etimadını sarsıdıb və sponsorların və investorların cəlb edilməsində yeni çətinliklər yaradıb. Eyni zamanda korrupsiya qalmaqalları ictimaiyyətdə Olimpiadaya qarşı mənfi rəyi artırıb ki, bu da oyunlara marağın və iştirak səviyyəsinin azalmasına səbəb olub.

Olimpiadanın təşkili prosesində şəffaflıqla bağlı məsələlər maliyyə bölgüsündə və qərarların qəbulunda müntəzəm olaraq açıqlığın olmadığını görən və yüksək şəffaflıq və hesabatlılığa malik layihələrə investisiya qoymaq istəyən tərəfdaşları və sponsorları cəlb etməyi çətinləşdirir. Bu, təbii ki, bir çox müstəqil ekspertlərin tənqidinə səbəb olur. İdmançıları və turistləri ləyaqətlə qəbul etmək Olimpiya Oyunlarının təşkilatçılarının ən mühüm vəzifələrindən biridir, halbuki Paris üçün infrastruktur və mənzillə bağlı kritik problemləri nəzərə alaraq, bu, ciddi problemə çevrilib.

İdmançıların, məşqçilərin və yığma komandaların köməkçi heyətinin hazırda yaşadığı Olimpiya kəndində tikinti və modernləşdirmə işləri hələ də başa çatmayıb. Oyunlara baxmağa gələn ziyarətçilərin sayını nəzərə alsaq, turistlərin yerləşdirilməsinin olmaması da ayrıca problemdir. Artıq Paris Olimpiya Kəndində idmançıların və digər işçilərin yataq böcəkləri ilə dolu "karton" çarpayılarda yatmağa məcbur edildiyi, kondisioneri olmayan pis təmirli otaqların video və fotoşəkilləri artıq sosial şəbəkələrdə yayılıb.

### Olimpiya oyunlarında yeniliyin müzakirəsi

Parisdə Olimpiadanın keçirilməsi ilə bağlı maliyyə, infrastruktur və təşkilati problemlər kontekstində oyunların təşkilinə ənənəvi yanaşmanın mümkünlüyü müzakirə edilir. Bəzi ekspertlər Olimpiya Oyunlarının daimi bir yerdə keçirilməsi imkanını nəzərdən keçirməyi təklif edirlər. Belə bir təklifin lehinə arqumentlər arasında aşağıdakılar var: idman obyektlərinin tikintisi və abadlaşdırılması üçün xərclərin azaldılması, ətraf mühitə mənfi təsirin minimuma endirilməsi, təşkili və maliyyələşdirilməsinin şəffaflığının artırılması, Olimpiya Oyunlarının mədəni-tarixi irsinin qorunması.

Olimpiya Oyunlarının konsepsiyasına yenidən baxılması son islahatlara doğru mühüm addım ola bilər. Bu cür dəyişikliklər daha şəffaf və səmərəli maliyyələşdirmə mexanizmlərinin tətbiqini, oyunlar üçün daimi infrastrukturun yaradılmasını, beynəlxalq ictimaiyyətin Olimpiadanın təşkilində və keçirilməsində daha fəal iştirakını nəzərdə tuta bilər. Olimpiadanın ciddi islahatı təşkilatçıların qarşısında duran bir çox problemləri həll etməyə və gələcək oyunlar üçün daha davamlı və effektiv model yaratmağa kömək edə bilər.

Son onilliklərin təcrübəsi göstərir ki, yalnız iki ölkə (Rusiya və Çin) Olimpiya Oyunlarını lazımi səviyyədə keçirə bilib. Halbuki BOK, UEFA, FİFA və digər Qərb strukturları tərəfindən keçirilən iri idman turnirləri, bir qayda olaraq xaos, korrupsiya və tüğyan edən cinayət arenasıdır. Bəlkə də Beynəlxalq Olimpiya Komitəsi kimi strukturların mövcudluğu və zərurətini yenidən nəzərdən keçirməyin və beynəlxalq idman institutlarının bütün sistemini yenidən formatlaşdırmağın vaxtı çatıb. Həmçinin, ABŞ və ya Avropaya yaxınlığından asılı olmayaraq, bütün iştirakçıların hüquq və maraqlarını nəzərə almağa qadir olan, BRİKS+ kimi strukturlardan ibarət, geniş ərazidə fəaliyyət göstərən yeni idman federasiyaları yaratmağa dəyər...

***V.VƏLİYEV***

RAKURS

# “950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb”

**Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib. 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib. SİA xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 5-də keçirilən iclasında söyləyib.**



“Deputatlığa namizədliyini irəli sürənlərdən 1420 nəfəri imza vərəqəsi alıb, 1197 nəfər isə imza vərəqələrini qaytarıb, 950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb”, - deyə MSK sədri vurğulayıb. Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə beynəlxalq müşahidə missiyası təmsilçilərinin və maraqlı subyektin özünün də bilavasitə iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsindən sonra müraciətin təmin olunmasına və namizədliyin imtinası ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarının ləğv edilərək, şəxsin Milli Məclisə seçkilərdə namizədliyinin qeydə alınmasına qərar verilib.

Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasda, həmçinin Milli Məclisə seçkilərlə əlaqədar ardıcıl, sistemli və intensiv davam edən ümumrespublika miqyaslı maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verilib, proseslərin gedişinə dair statistik göstəricilər diqqətə çatdırılıb və cari məsələlərə baxılıb.

# ABŞ 60 il ərzində Ermənistanı...



Ermənistan hökuməti respublikada atom elektrik stansiyalarının tikintisi üçün şirkət yaradıb. Xüsusilə, onun əməkdaşları bazardakı təklifləri öyrənməli və ən yaxşı layihəni seçməli olacaqlar. Bu məqsədə çatmaq üçün təşkilata bir il yarım-iki il vaxt və 2 milyon dollardan bir qədər çox illik büdcə ayrılıb.

Hazırda Ermənistanın Metsamor şəhərində atom elektrik stansiyası var. 2017-ci ildə bağlanmalı idi, lakin xidmət müddəti daim uzadılır. Stansiyanın fəaliyyəti Rosatom-dan asılıdır. 2023-cü ilin dekabrında Ermənistan hökuməti AES-i 2036-cı ilə qədər işlək vəziyyətdə saxlamaq üçün Rusiya dövlət korporasiyası ilə AES-in modernləşdirilməsi və yenidən qurulmasına dair 65 milyon dollarlıq müqavilə imzalayıb. Bundan sonra o, xidmətdən çıxarılmalı olacaq. Metsamor Ermənistanın daxili enerji ehtiyacının təxminən 30%-ni ödəyir və hətta ölkəyə elektrik enerjisinin bir hissəsini Gürcüstan və İrana ixrac etməyə imkan verir. Eyni zamanda Azərbaycan və Türkiyə təhlükəsizlik təhdidini əsas gətirərək obyektin bağlanmasını tələb edir. Bundan əlavə, 2018-ci ildə Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı departamentinin rəis müavini Dirk Lorenz bildirib ki, Ermənistan AES-i təhlükəsiz etmək üçün kifayət qədər təkmilləşdirmək mümkün deyil.

Xatırladaq ki, onun ilk reaktoru 1976-cı ildə işə salınıb, ikincisi 1980-ci ildə qoşulub. 1988-ci ildə baş verən dağıdıcı zəlzələ stansiyaya ciddi ziyan vurmayıb, lakin Çernobıl faciəsindən sonra Sovet hakimiyyəti onu bağlamaq qərarına gəlib. 1990-cı illərin əvvəllərində bu, respublikanın sosial-iqtisadi fəlakətində mühüm rol oynadı. Qarabağı ələ keçirmək üçün Ermənistanın başlatdığı müharibə səbəbindən Azərbaycan hakimiyyəti bu ölkəyə qaz nəqlini dayandırdı. Humanitar böhran baş verdi və bir çox erməni öz vətənlərini tərk etməyə məcbur oldu. SSRİ-nin dağılmasından sonrakı ilk illərdə birinci enerji bloku yararsız vəziyyətə düşmüşdü, lakin 1995-ci ildə İrəvan hələ də ilkin gücünün 93%-i ilə işləyən və maksimum 1240 MVt enerji istehsal edə bilən ikincini işə sala bildi. .

Hakimiyyət Çin, Rusiya, Cənubi Koreya, Fransa və ABŞ-ın yeni atom elektrik stansiyasının tikintisi ilə bağlı təkliflərini nəzərdən keçirir. Eyni zamanda, respublikada insanlar yeni stansiyanın nə qədər güclü olacağından narahatdırlar. Beləliklə, amerikalılar 300 MVt-a qədər enerji istehsal gücünə malik modul stansiya tikə bilərlər. Düzdür, İrəvanda qeyd edirlər ki, bu, adi nüvə reaktorundan daha təhlükəsiz ola bilər. Öz növbəsində Rosatom hər biri 50 MVt olan ayrı-ayrı bloklardan istifadə etməklə 50-dən 1000 MVt-a qədər istənilən gücə malik nüvə reaktorunun tikintisini təklif edib.

Maraqlıdır ki, atom elektrik stansiyaları Ermənistanda yeganə enerji mənbəyi olmasa da, onların əksəriyyətinə bu və ya digər şəkildə Moskva nəzarət edir. Xüsusilə, Sevan-Hrazdan Kaskadı kimi tanınan yeddi su elektrik stansiyasından ibarət Sovet kompleksi erməni-rus milyarder Samvel Karapetyanın nəzarətində olan Rusiyada yerləşən Tashir Şirkətlər Qrupuna məxsusdur. Bu köhnəlmiş stansiyaların pis vəziyyətdə olduğu bildirilsə də, onlar hələ də Ermənistanın elektrik enerjisinin təxminən 10%-ni istehsal edirlər.

Taşir, həmçinin milli elektrik paylayıcı şirkəti olan Ermənistanın Elektrik Şəbəkələrinə, eləcə də təxminən 400 MVt gücündə Hrazdan istilik elektrik stansiyasına sahibdir. Eyni zamanda, Hrazdan stansiyası İrana gedən boru kəməri də daxil olmaqla, Ermənistanın qazpaylayıcı şəbəkəsinə də sahib olan “Qazprom”un Ermənistana verdiyi təbii qazla işləyir. İki diqqətəlayiq istisna var: Ermənistanın ən cənubunda yerləşən Sünik rayonunda yerləşən Vorotan su elektrik stansiyaları kaskadı və 2021-ci ildə istifadəyə verilən Yerevan İES. Birinci əmlak son nəticədə Amerika investisiya şirkəti KKR-ə, ikincisi isə Ermənistana məxsusdur.

Qafqaz İnstitutunun tədqiqatçısı Qrant Mikaelyan izah edib ki, Rosatom və Avropa İttifaqının sayəsində Metsamor Atom Elektrik Stansiyasında qəza riski indi 50 min ildə bir halda qiymətləndirilir, lakin qalan enerji bloku hələ də mənəvi və fiziki cəhətdən çox köhnəlib. 2036-cı ildən sonra isə AES tamamilə söndürüləcək.

“Ermənistan atom elektrik stansiyasından məhrum qalmaq istəmir. Söhbət digər məsələlərlə yanaşı, ölkənin siyasi statusunu aşağı salmamaq istəyindən gedir. Elektrik enerjisinin istehsalına gəlincə, indi respublikanın Metsamorun verdiyi qədər elektrik enerjisinə ehtiyacı yoxdur. Lakin gələcəkdə elektromobillərin sayının artması və kompüter sektorunun inkişafı, qalıq enerji mənbələrindən imtina və s. fonunda vəziyyət dəyişə bilər”, - Mikaelyan qeyd edib. Ekspertin sözlərinə görə, əvvəlcə “Rosatom”un təklifi qiymət, texnologiya və istehsal həcmi baxımından ən cəlbedici hesab edilirdi, lakin indi Ermənistan hakimiyyəti Amerika variantına meyllidir. Nə olursa olsun, Sovet dövründə inşa edilmiş AES-in yerində yeni bir stansiya görünəcək.

“Atom elektrik stansiyasını hansı ölkənin tikəcəyi İrəvanın təxminən 2080-ci ilə qədər kiminlə bağlı olacağını müəyyən edəcək. Söhbət təkcə stansiya tikmək məsələsi deyil, Rusiya və ABŞ-da bir qədər fərqli olan uran oraya tədarük edilməlidir. Ancaq indi Ermənistanın tikintiyə pulu yoxdur və onu haradan alacağı da məlum deyil. Hələlik biz maliyyə cəhətdən əsaslandırılmış texniki həllərdən daha çox siyasi danışıqlarla məşğul oluruq”, - deyə Mikaelyan yekunlaşdırıb.

**VƏLİ**



MƏTLƏB

Metlebsalahov@mail.ru

# İran-İsrail “müharibəsi”: Vur - vurum...

***Dünya neçə gündür ki, HƏMAS təşkilatının lideri İsmayıl Haniyənin Tehranda sui-qəsd nəticəsində öldürülməsindən sonra yaşanan gərginliklə “nəfəs” alır. Daha doğrusu, yalançı “gərginlik”, söz atışması tamaşasından bezib, təngə gəlib. Bilmək olmur kim yalandır, kim gerçək. Öz paytaxtında olduqca önəmli siyasi fiquru güdaza verən İran rejimi neçə gündür ki, İsraili hədələyir, “dəhşətli qisas” saatlarının yaxınlaşdığını elan edir, hətta İran televiziyası bir neçə saatdan sonra İran və İsrail arasında qan-qadalı “böyük buluşma” olacağını elan edir... amma farsların öz sözləri ilə desək, çi fayda. Ortada nə müharibə var, nə də burunu qanayan. Sadəcə, “vur-vurum” tamaşası. Dəhşətlisi odur ki, sui-qəsdin üstündən artıq neçə günlər keçib, İran dövləti beş-üç farsı zindana atmaqdan başqa HƏMAS liderinin qatilini, bu qətlin sifarişlərinin konkret adlarını belə açıqlamayıb. Ümumu olaraq rəsmi Təl-Əvivi hədəf göstərməkdən başqa ortada konkret hüquqi qiymət yoxdur. Əlbəttə, Tehranın ortasında, güclü mühafizə olunan bir yerdə HƏMAS liderini kimsə əlini sallaya-sallaya gəlib öldürə bilməzdi. Bu işdə daxildəki qüvvələr də lokomotiv rolunu oynayır. Heç şübhəsiz ki, İrandakıların da barmaqları İ.Haniyənin qanına bulaşmış kimi görünür. Əlbəttə, İran rejiminin buna nə dərəcə “dobro” verib-verməməsindən asılı olmayaraq...***

Olduqca diqqətçəkən bir fakt var. Nədənsə zaman-zaman belə sui-qəsdlər, kimlərinsə aradan götürülməsi daha çox Tehranın “qismətinə düşür”. Açıq şəkildə demək lazımdır ki, sabiq İran Prezidenti İbrahim Rəisinin və komandasının “dumanlı havada necə itdiyi” də müəmma olaraq qalır. Üstəlik, İsrailə qarşı radikal münasibəti olan HƏMAS liderinin iranlıların gözləri qarşısında öldürülməsi bütün diqqətləri artıq İsrailin deyil, məhz İranın üzərinə cəmləyir. Rəsmi Tehranın guya İ.Haniyənin uzaqmənzilli raket hücumu nəticəsində öldürüldüyü barədəki tam savadsız məlumatı onu daha da gülünc vəziyyətə qoyub. Çünki bununla bağlı dağıntı və dəqiq video fakt da ortada yoxdur. Sanki antik dövrlərdə baş verən hadisə barədə məlumat yayırlar. İran belə situasiyalarda özünü möhkəm itirir ki, bu da real vəziyyəti tez büruzə verir. 2020-ci ilin yanvarında iranlı general Qasim Süleymaninin Bağdadda öldürülməsindən sonra İran hakimiyyəti necə həyəcanlanmışdısa, Tehrandan qalxan sərnişin təyyarəsini yerlə yeksan etmişdi. O zaman xeyli Ukrayna vətəndaşı da İranın bu “çevikliyinin” qurbanı olmuşdu...

Amma HƏMAS liderinin Tehranda öldürülməsi həm də məhz İranın özünün bu təşkilata və İ.Haniyəyə olan münasibətini də gündəmə gətirir. Açıq görünür ki, HƏMAS liderinə qarşı hücum ya yaxın məsafədən, ya da binanın daxilindən həyata keçirilib. Bu da İranda İsrailə bağlı casus şəbəkəsinin varlığına dair ciddi suallar yaradır. Əlalxüsus da nəzərə alsaq ki, İ.Haniyə sui-qəsdə məruz qalarkən məskunlaşdığı bina Prezident Pezeşkianın iqamətgahından 700-800 metr aralıda yerləşir, deməli, bu hadisə hər şeydən əvvəl birinci İranın nüfuzuna xələl gətirir.

Xatırladaq ki, məhz İran liderinin şəxsən İ.Haniyəni qəbul edib “xeyir-dua” verməsindən sonra keçən ilin oktyabrında HƏMAS bir gecədə İsrailə 500 raket atmışdı və hər iki tərəfdən ölən və yaralananların sayı rekord həddə idi. Xüsusilə, bu hücumdan sonra İsrail Qəzzada müsəlmanlara qarşı xüsusi qəddar əməliyyat aparmışdı. O zaman Qəzzada inildəyən körpələrə görə İrandan bir nəfər çıxıb İsrail tanklarının, raketlərinin qarşısına çıxmadı. Hələ indiyə kimi Qəzzada günahsız uşaqları qadınları müdafiə edərkən öldürülən bir nəfər iranlıya və ya başqa bir müsəlmana rast gəlinməyib. Bunlarınkı qızışdırmaqdır. Qızışdırırlar, əvəzini isə günahsız uşaqlar və qadınlar qan-ları-canları bahasına ödəyir. Qızışdırıb sonra kənarda durmaq taktikası deyərlər buna...

Bir başqa tərəfdən çox güman ki, İranın artıq HƏMAS-la bağlı başqa planları var və Tehranda öldürülən İ.Haniyə bu planlarda yer almırdı. Tehranın HƏMAS-ın hərbi qanadının lideri Xalid Məşələ “stavka” edəcəyi də verilən məlumatlar sırasındadır. Belə görünür ki, İranın israilə qarşı qisas planı “vur-vurum” tamaşasından o tərəfə keçəsi deyil. Həmişə olduğu kimi gizli oyunlar, yalançı bəyanatlar və SÖZ OYUNU....

# Azərbaycan - müxtəlif etnos və millətlərin yaşadığı TOLERANT ÖLKƏ!

***Bu gün öz inkişafı və multikulturalizm dəyərləri ilə dünyanın diqqətində olan gözəl ölkəmizdə – Azərbaycanda nümunəvi dövlət-din münasibətləri uğurla həyata keçirilir və tolerant mühit hökm sürür. Əlbəttə ki, mövcud vəziyyət, dövlət siyasəti bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. Dini dözümlülük, tolerantlıq kimi dəyərlər Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.***

Əsas Ana Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımızın əmin-aman şəraitdə yaşaması, birlik, həmrəylik nümayiş etdirməsi şübhəsiz ki, əsrlərin sığından çıxan dəyərlərdən qaynaqlanır. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib.

### “AZƏRBAYCANIN BUGÜNKÜ SÜRƏTLİ İNKİŞAFI DA MƏHZ BU MƏDƏNİ İRSİMİZƏ VƏ CƏMİYYƏTİMİZİN BÜTÜN NÜMAYƏNDƏLƏRİNİN NÜMAYİŞ ETDİRDİYİ HƏMRƏYLİYƏ ƏSASLANIR”

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Təbii ki, tolerant mühitin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, ədalətin bərqərarı deməkdir.

Dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olan Azərbaycanda xristian icması əsrlər boyunca tariximizin formalaşmasında iştirak edib. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. ”Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik”,

### XALQLARIN TARİXİ BİRLİYİ VƏ QARDAŞLIĞI

Çətin, ağır, eləcə də xoş günlərdə də bütün xalqların nümayəndələri bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti



Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdumaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlığ örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: ”Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir”.

### “MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ BU GÜN DƏ ÖZ MÜTƏRƏQQİ TARİXİ ƏNƏNƏLƏRİNƏ SADİQDİR”

Azərbaycanda yaşayan milli azlıqlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, ”Saxur” Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, udilərin ”Orayin” Mədəni Mərkəzi, tatların ”Azəri” Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Axıska türklərinin Vətən Cəmiyyəti və s. nümunə göstərmək olar.Təsadüfi deyil ki, azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi ”Musiqi Atlası” layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir.

Bütün xalqların dini-mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki kilsələr, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi və s misal göstərmək olar. Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları çox təqdirəlayiqdir. Azərbaycanda yaşayan yəhudilər də hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsi kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir”.

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində böyük uğurlara nail olub. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirir.

”Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir”, - deyə Prezident bildirib.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdəki mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədi ilə maliyyə yardımları ayrılır. Prezidentin qeyd olunan sərəncamları Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna və s. şamil olunur.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir.

***Zümrüd BAYRAMOVA***





# Turizmin inkişafı üçün yeni mərhələ

***Bu gün dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirməkdədir. Belə ki, rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına töhfəsini verir. Turizmin inkişafı ilə bağlı görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.***



Növbəti yaxın gələcək üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Xatırladaq ki, Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, yerli Maçi-Piçku və ya Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları və Talış dağları və s. turist məkanı kimi tanınıb.

Mədəni turizm, sağlamlıq turizmi, idman turizmi, çimərlik turizmi, ekoloji turizm və s. ölkəmizdə mövcuddur və bunlar xarici turistləri ölkəmizə cəlb etməyə bilməz. Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikildi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndər Heydər Əliyevin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə turizmin inkişafının yeni mərhələsinə təkan verən "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyekt tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir.

Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# ANA SÜDÜ: kim desə ki, əvəzi var, inanmayın!



**_Dünyaya uşaq gəlir, həyatımızın bəzəyi uşaq... Onun ilk qidası ana südüdür. Minlərlə irili-xırdalı vitaminləri özündə birləşdirən, uşağın sağlam böyüməsində, dincliyində, sakitliyində, yuxusunda, bir sözlə, günlük həyat tərzində, gələcəyində böyük əhəmiyyətə malik olan ana südü. Dəfələrlə danışmışıq bu barədə. Lakin görünür ki, hələ də azdır._**




Uşağına süd verən anaların sayı gündən-günə azalır. Belə isə biz heç susmayaq... Avqustun 1-dən 7-dək Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə keçirilən Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsində isə heç susmayaq. Susmayaq ki, bəlkə səsimizi gənc analar duya, ana südünü heç bir süni qidanın əvəz etmədiyini dərk edə.

## Kolostrum körpənin ilk peyvəndidir

Amerika Pediatriya Akademiyasının tövsiyəsinə görə, körpə ilk 6 ay ərzində yalnız ana südü ilə qidalandırılmalı və bu, ən azı 1 yaşa qədər davam etdirməlidir. Ümumdünya Səhiyyə Təşkilatı da körpələri ana südü ilə qidalandırmağa doğuşdan bir saat sonra başlamağı, 2 yaş və ya daha uzun müddətə davam etdirməyi məsləhət görür.

Ana südü yenidoğulmuşlar və körpələr üçün optimal qidalanmanı təmin edir. O, lazımi miqdarda qida maddələrinə malikdir və asanlıqla həzm olunur.

Araşdırma apararkən mütəxəssis Cəmilə Hacızadənin qarşıma çıxan elmi məqaləsində oxuyuram ki, ana südü ifrazolunma müddətinə və tərkibinə görə kolostrum, keçid südü və yetkin süddən ibarətdir. Kolostrum doğuşdan sonra ilk 5 gün ərzində ifraz olunan, qatı və sarımtıl rəngli süddür. Tərkibində az yağ və laktoza var. O, xüsusən infeksiya əleyhinə xüsusiyyətə malik zülallarla zəngindir. Kolostrum immunoqlobulinlərlə zəngin olduğundan yeni doğulmuş körpəni xarici mühitin patogen amillərindən, yeni mikroorqanizmlərdən qoruyur. Həmin xüsusiyyətinə görə kolostrum körpənin ilk peyvəndi olaraq qəbul edilir. Həmçinin yeni doğulmuş uşağın formalaşmamış həzm sisteminin inkişafına kömək edir. İlk bir neçə gündən sonra körpənin mədəsi böyüdükcə ananın orqanizmi daha çox süd istehsal etməyə başlayır.

Ana südü körpələr üçün ideal qidalanmanı təmin edir. Ana südü ilə qidalanma körpənin bir sıra xəstəliklərə tutulma riskini azalda bilər, onun çəkisini sağlam şəkildə artırır. Ana südü mühüm antitellər ehtiva edir, uşaqların zehni inkişafında böyük əhəmiyyətə malikdir.

## Körpəyə iki il ana südü verilməlidir

Müqəddəs kitabımız olan "Quran"ın surələrinin 11 ayəsində, xüsusən, Bəqərə surəsində açıq şəkildə deyilir: "Körpələrinizdən ana südünü əsirgəməyin. Doğulandan sonra tam iki il ona süd verin".

Ana südü Yaradanın insana, anaya verdiyi ən gözəl təbii nemət və körpəyə verilən ən təhlükəsiz və dəyərli qidadır. Bir vaxtlar tibb ana südünün yalnız körpənin 4, sonralar 6 ayına qədər verilməsini əsas sayırdısa, dünya təbabəti hazırda bu vaxtın iki ilə qədər uzadılmasını elmi əsaslarla tövsiyə edir. Belə isə hər bir ananın vəzifəsidir ki, dünyaya gətirdiyi övladını öz südü ilə qidalandırsın. Ana südünün körpəyə nə qədər vacib olması əsrlər boyu sübut olunmuş və hər birimizin təcrübəsində özünü doğrultmuşdur.

Təəssüf ki, bu gün tez-tez anaların körpələrinə süd verməkdən imtina etmələri kimi hadisələrlə qarşılaşırıq. Çox ana südünün olmadığını bəhanə gətirərək əslində bədən formasının pozulmaması üçün övladına südünü çox görür. Lakin əvvəllər belə deyildi. Ananənələrimiz vardı ki, hələ gəlinini qızı yenicə hamilə olan vaxtdan ta doğuşa qədər evlərdə maarifləndirmə aparır, ana südünün faydalarından danışır, ana olacaq qadını elə yetişdirirdi ki, o, birinci vəzifəsi kimi körpəsinə ana südünü verməli olduğunu dərk edirdi. Beləliklə də uşaq dünyaya gələndən sonra ona aldığı tövsiyələrlə elə yanaşırdı ki, həm uşaq normal əmməyi öyrənirdi, həm də südü davamlı gəlirdi.

Lakin müasir dövrümüzdə necədir? Hazırda anaların süd verməkdən imtina etməsində bütün cəmiyyət kimi, həm də onların böyüklərinin günahı var. Tanıdığım bir qadının qızı heç bir il deyil ki, ikinci dəfə ana olub. Anası ona tövsiyə edirmiş ki, nə badə körpəyə süd verəsən, "fiquran" korlanar. Bu söhbəti eşidəndə, günlərlə ona məzəmmət etdim. Çünki məsləhət verən ana müəllim idi. Bir müəllimin bu təfəkkürə malik olmasını əsla həzm edə bilmirdim. Lakin gənc ana qayınanasının tövsiyəsi ilə körpəsini ancaq ana südü ilə qidalandırmağa başladı. Hazırda uşağın bir yaşının tamam olmasına bəlkə də bir aydan az vaxt qalır. Hələ də o körpə ana südündən başqa qıda dadmayıb. Çox sağlam bir uşaqdır. Bax, bu cür onlarla nümunələr çəkmək olar. Düşünəndə ki, gənc ananın heç bir təcrübəsi yoxdur, biz böyüklər ona hansı tövsiyə və məsləhəti versək, onunla razılaşacaq, bəs belə isə nə üçün faydalı məsləhətlər verməyək?

Düzdür, həmişə yazılarımda vurğulamışam ki, internet həyatımıza daxil oldu-olmadı, onu alt-üst etdi. Gənc analar internet vasitəsilə süd verməklə fiquralarının pozulacağını öyrənirlər. Bunu analıq hissindən kənar, övladının sağlamlığını gözəl görünməyə qurban verən ana deməzdim, qadınlardan öyrənirlər. Lakin analarımız arasında buna məna verməyəni də var, beynində saxlayıb ana olan kimi həyata keçirəni də var. Odur ki, Azərbaycanda körpəyə süd verməmək, südü qəsdən qurutmaq kimi hallar çoxalıb. Elə bu səbəbdən də ana olan qadınlarımızın az faizi, yəni 50 faizi körpəsini ana südü ilə qidalandırır. Lakin nəzərə alsaq ki, ana südü hazır qidadır, bəzən gecə yorğunluğu bəhanə gətirib körpəsini qidalandırmaq istəməyən analara bir sual vermək istəyirəm: gecə uşaq oyanıb ağlayanda onu qucağına alıb hazır ana südü ilə onu qidalandırmaq rahat və yaxşıdır, yoxsa qalxıb mətbəxə gedib, su isidib, süni yemək hazırlayıb gətirib uşağı qıdalandırmaq yaxşıdır? Ana gələnədək də uşağın ağlamaqdan yuxusu pozulur. Yesə, qarnı doysa da, nə özü yatır, nə də ana. Hansı sənə sərf edər? Həqiqətən, ağıllı başla, məntiqlə düşünəndə hazır yeməyi qoyub insan özünə nə üçün bu qədər zülm edir, anlamıram. Həm də süni yeməklərin tərkibini, övladımızın sağlamlığı üçün zərərli olduğunu bilə-bilə... Unutmayaq ki, yeni doğulmuş körpənin heç olmazsa, 6 aya qədər əmizdirilməsi ilə hər il 1000 uşağın ölümünün qarşısı alına bilər.

## Yarı uşaq, yarı ana





Körpənin ana südü ilə əmizdirilməsi 50 faiz uşaq üçün əhəmiyyətlidirsə, 50 faiz də ana üçün faydalıdır. Belə ki, ana südü ilə qidalandırma ilkin olaraq körpəni qulaq infeksiyalarından, ishal, pnevmoniya və digər xəstəliklərdən qoruyur. Döş xərçəngi, yumurtalıq xərçəngi və diabet riskini azaltmaqla həm də analar üçün faydalı olur?

Uzun müddət ana südü ilə qidalandırma uşağı orta qulaq, boğaz və sinus infeksiyalarından, həmçinin çoxsaylı tənəffüs və mədə-bağırsaq xəstəliklərindən qoruyur. Hətta 6 ay ərzində yalnız ana südü ilə qidalanan körpələrdə ciddi soyuqdəymə məruz qalma, eləcə də qulaq və boğaz infeksiyalarına tutulma, ani körpə ölümü sindromu, astma, atopik dermatit və ekzema, diabet, leykozun yaranması riski daha az olur.

Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər. Ana südü ilə qidalanan körpələrdə çox miqdarda faydalı bağırsaq bakteriyası var ki, bu da yağların depolanmasına təsir edir. Ana südü ilə qidalandırılan körpələrin orqanizmində süni qida ilə qidalanan körpələrə nisbətən daha çox leptin var. Leptin iştahanı və yağ yığımını tənzimləyən əsas hormondur.

Ana südü uşaqların zehni inkişafına təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur və böyüdükcə öyrənmə çətinliyinə, eləcə də davranış problemlərinə daha az məruz qalırlar.

Dünyada hər 10-cu qadın süd vəzisinin xərçəngi və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir və bu, dünyada qadın ölümünə səbəb olan xəstəliklərin ilk sıralarındadır. Məhz Azərbaycan qadınlarında da bu xəstəliyin olması və yayılması ürəkaçan deyil. Dünya təcrübəsi göstərir ki, süd vəzisi xərçəngini ilkin mərhələdə aşkarlamaqla onun gələcək inkişafının qarşısını almaq mümkündür. Bu xəstəlik və ümumiyyətlə, cəmiyyət arasında belə xəstəliklərə qarşı maarifləndirmə işləri aparılmalıdır. Maarifləndrmənin əsas məqsədi odur ki, həmin xəstəliyin ilkin nəticələrini aşkar edən qadın həkim müayinəsindən keçir və xəstəlik erkən dövrdə aşkarlandığı üçün müalicə olunur. Körpəsini ana südü ilə qidalanan qadınlarda bu xəstəliyin olma təhlükəsi digər süd verməyən qadınlara nisbətən azlıq təşkil edir. Odur ki, UNİSEF ana südü ilə əmizdirmənin təbliği ilə bağlı çox böyük işlər aparır. Bu təbliğatı evdə, iş yerində, xəstəxanalarda hər kəs gənc qadınlar üçün aparmalıdır ki, onlar özlərini hansı təhlükə ilə üz-üzə qoyduqlarını anlasınlar. Həm özlərini, həm də körpələrini xilas etsinlər.

Beləliklə, ana südü ilə qidalandırma həm uşaq, həm də ana üçün faydalıdır. Yaxşı olar ki, gənc analar fiqura, görünüş məsələlərini bir kənara qoyub bu barədə düşünsünlər. Və bir də kim desə ki, ana südünün əvəzi var, ona inanmasınlar.

**_Mətanət Məmmədova_**




# Virtual həyata keçid və imitasiya psixologiyası

***Elm və texnologiyanın sürətli inkişafı dünyanın mənzərəsini və bəşəriyyətin həyatını kəskin dəyişir. Texnoloji dəyişiklik elə sürətlə gedir ki, bunu izləmək belə mümkün deyil. Son hesablamalara görə, mövcud elm hər 3 həftədə 2 qat artır. Bu nəhəng elmi, texnoloji yeniliklər "patok"u insanları informasiya bombardmanına məruz qoyur. Belə bir şəraitdə həyat təbiliyindən çıxır, insanların həyatı robotlaşır, qidası sünilәşir, fiziki aktivliyi minimuma enir, psixoloji yüklənməsi maksimuma çatır.***



Beləliklə, yaşamaq, inkişaf etmək, həyatda yer tutmaq uğrunda amansız mübarizə daha da şiddətlənir. İndi cəmi 50-60 il əvvəlki kimi savadlı adam oxuyub yazmağı, vurma cədvəlini bilmək sayılmır. İndi intellektual sayılacaq adam çoxşaxəli nəhəng elmi informasiya bazasına, hərtərəfli analiz qabiliyyətinə və müstəqil araşdırma imkanlarına malik olmalıdır. Bununla yanaşı, mövcud qlobal təhsil sistemi robot yetişdirmək üzərində qurulub- belə ki, insanlar tək bir sahə üzrə biliklər əldə etməli və gücə-gündüz yalnız o sahədəki yenilikləri izləməklə məşğul olmalıdır ki, uğur qazana bilsin. Məsələn, diş həkimisənsə, sənin dünyan dişdən ibarət olmalıdır. Səninlə ədəbiyyatdan, fizikadan, siyasətdən, idmandan danışmaq mümkün deyil. Amerikada formalaşdırılmış bu sistem effektli bir təhsil sistemi kimi oradan dünyaya ixrac edilir.

Normalda isə insan bir sahədə mükəmməl biliklərə malik olmalı, lakin bununla yanaşı bütün sahələrində də müəyyən biliklərə malik olmalıdır. Çünki insan robot deyil, hərçənd bəzi qlobal qüvvələr bəşəriyyəti robota çevirməyi hədəf qoyublar.

4-cü sənaye inqilabının başa çatmaqda olması nəticəsində robotlar, avtomatik texnologiyalar insanları əvəz edir, onların işini əlindən alır, onları tənbəlləşdirir, düşünməyə, yaradıcılığa imkan qoymur. Artıq süni intellekt sizin əvəzinizə rəsm əsəri də çəkir, dissertasiya da yazır, araşdırma da aparır, mahnı da qoşur, şeir də yazır və s.

Kommunizm nəzəriyyəsində deyilir ki, elmi-texniki inqilab nəticəsində insanların yerinə robotlar işləyəcək və insanlar yalnız elm, təhsil, idman, yaradıcılıq işləri ilə məşğul olacaqlar. Lakin qlobal kapitalizm belə düşünmür, çünki onun üçün hər şey gəlir və pul üzərində qurulub. Texnikalar yaradıldıqca insanlar işdən atılır, çünki 5 işçinin işini 1 robot həyata keçirir. Həmin işçilər isə mədəni, humanitar sahələrdə işlə təmin olunmurlar, onlar lazımsız əşya kimi kənara atılır. Hələlik qlobal inqilab baş verməsin deyə, onlara minimal sosial yardım təyin edirlər. Lakin qlobalist transhumanistlər açıq bəyan edirlər ki, planetdə bu qədər insana ehtiyac yoxdur, onların sayı kəskin azaldılmalıdır.

"Bunu necə etmək olar?" sualına cavab kimi isə, "heç də hamını güllələməyə ehtiyac yoxdur, doğumu azaltmaq (süni qidalar və dərmanlarla insanlarda müxtəlif xəstəliklər və sonsuzluq yaratmaq, cinsi azlıqların sayını artırmaq və ailə institutunu dağıtmaqla) və ömür müddətini azaltmaqla (virus və bəzi vaksinlərlə, müxtəlif xəstəlikləri artırmaqla, ekologiyanı korlamaq və qidaları pozmaqla və sair bu kimi "humanist" metodlarla) təbii azalmanı təmin etmək olar" deyə cavab verirlər.

Hələlik, insanları real həyatdan virtual həyata keçirmək texnologiyaları inkişaf etdirilir. Metavors adlı virtual dünya yaradılıb və insanlara orada mal, mülk almaq, ev və ya bağ sahibi olmaq, müxtəlif fəaliyyətlər göstərmək imkanı yaradılır. Burada hətta bazar da təşkil olunub, bu şeyləri alıb sata bilirsiniz, "dünyanı gəzə bilirsiniz", bir sözlə bu virtual cəhənnəmdə virtual yaşayırsınız.

İnsanlar artıq real ünsiyyətdən qaçır, virtual ünsiyyətə üstünlük verir. Təsəvvür edin, yay axşamı bir böyük binanın həyətində o binada yaşayan 500 nəfərdən 5 nəfərini görmək olmur, həm böyüklər, həm uşaqlar işdən, məktəbdən gələn kimi hərə öz smartfonunu götürüb başlayır virtual aləmdə "yaşamağa".

Qlobal terror 2 ana istiqamətdə aparılır- mənəvi-psixoloji və fiziki-bioloji.

Mənəvi-psixoloji terror media, kino sənayesi, ədəbiyyat, mədəniyyət, internet vasitəsilə aparılır və "Overton" pəncərəsi ilə dəyərlərin dəyişdirilməsi təmin olunur. Proses müasirlik, qadın azadlığı, uşaq azadlığı, cinsi azlıqların hüquqları, erkən evliliyə qarşı mübarizə kimi bəzəkli adlar altında aparılır. Pərdənin arxasında isə çox çirkin planlar həyata keçirilir. Televiziyalar, internet resursları, qeyri-hökumət təşkilatları, bəzi psixoloqlar, jurnalistlər, sosioloqlar və sair "ziyalılar" bu mənəvi deqradasiyanın təmin olunması üçün var gücləri ilə çalışırlar. Bu işlərə qlobal fondlardan milyardlarla dollar məbləğində qrantlar ayrılır.

Boşanmalar təşviq olunur, gənclərin evlənməyib həyatını ancaq karyeraya və əyləncəyə sərt etməsi təbliğ olunur, qadınların azadlıq adı altında azğınlığa sövq olunması təbliğatı aparılır. Onlara uşaq əvəzinə it, pişik gəzdirməyin daha müasir həyat tərzi olduğunu göstərir, alimləri yox, cah-cəlal içində yaşayan lütlənmiş müğənniləri, "uğur qazanmış" cinsi azlıqları kumir olaraq təqdim edirlər. Minillərlə formalaşmış dəyərləri saxta dəyərlərlə dəyişdirirlər.

Uşaqlar üzərində ayrıca işlənir- aqressiv komputer oyunları, subliminal mesajlarla dolu multfilmlər və sair psixt-



ron təsir vasitələri tətbiq olunur. Müasir uşaqları artıq valideynləri yox, başqaları tərbiyə edir, onların psixologiyasını necə lazımdır formalaşdırırlar. Beləliklə, köhnə nəsillə yeni nəslin bağlarını qoparırlar. Ona görə, yeni nəsil gənclərin adını "Z" nəsli qoyublar. Z, latın əlafbasının son hərfi olaraq həm son təbii insan nəsli ifadəsini simvolizə edir, həm də "Zombi" sözünün baş hərfi olaraq zombiləşmiş nəsil deməkdir.

Bəli, bütün bunlar bəşəriyyətə qarşı tam bir mənəvi-psixoloji terror proyektidir. Lakin, bu məsələnin yalnız 50 faizidir. Digər 50 faizi haqda da bir az danışaq.

Fiziki-bioloji terror qidalar, dərmanlar, iş, ekoloji vəziyyət və sair bu kimi sahələrdə aparılır. Təbii qidaların sıradan çıxarılaraq, geni dəyişdirilmiş qidalarla və süni kimyəvi məhsullarla əvəz olunması prosesi tam sürətlə gedir. Artıq meyvələr, tərəvəzlər yalnız zahiri cəhətdən özünə oxşayır, onların tərkibi, dadı, faydalılığı yoxdur, sadəcə forma kütləsidir. Eyni şey ət və süd məhsularına, bütün digər ərzaq məhsullarına da aiddir. Bir sözlə, artıq qida əvəzinə qidanın imitasiyasını qəbul edirik. İndi də, süni ət texnologiyası yaradılıb və laboratoriyalarda proqramlaşdırılış hüceyrələrdən yaradılmış bu qorxunc məhsulu ət əvəzinə insanlara təklif edirlər.

Paralel olaraq, təbii ətin bütün dünyada qiymətinin durmadan artması təşkil edilir. Bunun üçün dünyada heyvanların sayının azaldılması prosesi aparılır. Bəhanə də nə olsa yaxşıdır? Guya heyvanlar metan qazı buraxırmış və bu da havanı zəhərləyir, ozon qatını dağıdırmış! O qədər gülünc və xəstə bəhanədir ki, əslində bu haqda danışmağa belə dəyməz, amma biz bir-iki cümlədə vəziyyəti ifadə edək.

Atmosferi zəhərləyən yeganə faktor qlobal kapitalistlərin sərəncamında olan kimya zavodlarıdır ki, bütün dünyada olan heyvanlar birlikdə atomisferə tək bir zavodun buraxdığı qədər karbon və metan emissiyası buraxa bilməz. Aparılan nüvə sınaqları, hərbi sınaqlar, zərərli texnologiyaların istehsalı və sair bu kimi ekoloji terror elementlərini yığışdırmaq əvəzinə heyvanları qırmaq açıq şəkildə vəhşilikdir.

"Chemtrails" proyekti ilə təyyarələr vasitəsilə gözümüzün qarşısında bütün dünyaya zəhər səpməyi dayandırsalar, daha yaxşı olar. Bununla guya, stratosferdə xüsusi qat yaradacaq, Günəş şüalarını azaldacaq və qlobal istiləşmənin qarşısını alacaqlarmış. Bu, şeytanın ağlına belə gəlməyəcək qədər dəhşətli bioloji terror proyektlərindən yalnız biridir.

Saxta və ifşa olunmuş plandemiyalarla, texnogen vasitələrlə, psixotron terrorla, qida və dərman terroru ilə, ekologiyaya təcavüzlə, süni "təbii fəlakətlər" təşkil etməklə, insanların gen strukturunu, psixologiyasını, dəyərlərini dəyişdirməklə yaratmaq istədikləri "Yeni dünya nizamı" tam bir şeytani plandır və bəşəriyyət buna qarşı mübarizə aparmalıdır.

Bəşəriyyətin ağciyərlərinə terrorla (COVİD virusu və sair analoji viruslar) dünyanın ağciyərlərinə terror (dünya meşələrinin qəsdən yandırılması) prosesi paralel aparılır. Və bütün bu terrorları aparan qüvvələr guya dünyada ekologiyanı qorumaq və insanların sağlamlığını təmin etməklə məşğul imiş. Bu, canavarın qoyunlar qarşısında vegetarian olmasını bəyan etməsi kimi bir şeydir.

Bu qlobal şeytanlar dəfələrlə ifşa edilməklərinə baxmayaraq (məsələn, AİDS virusunun süni yaradılıb qəsdən dünyaya buraxılması kimi) özlərini mələk donunda göstərməkdən çəkinmirlər. Dünyanın bütün maliyyə sərvətlərini, iqtisadi resurslarını, elmi-texnoloji bazasını, siyasi və hərbi gücünü, kütləvi təbliğat vasitələrini əllərində cəmləşdirmiş bu qorxunc mafiya son vaxtlar planlarını heç gizlətmir də. Bu planlarını açıq şəkildə kitablarda yazır, kinolarda göstərir, öz medialarında təbliğ edirlər. Yəni, gizli heç nə yoxdur, hər şey açıq ortadadır- bəşəriyyətə qarşı elan olunmamış müharibə gedir. Bu müharibə haqda əsas məqamları və həyata keçirilən proyektləri əvvəlki yazımızda vermişik, buradan oxuya bilərsiniz (https://sesqazeti.az/news/world/1170096.html).

Bu mövzuda növbəti yazılarımızda həmin proyektlərin hər biri haqda bütün detalları ilə ayrıca yazacağıq. Yekun olaraq deyə bilərik ki, artıq insanlar real həyatdan virtual həyata keçirilir, təbii olanın əvəzinə onun süni imitasiyası ilə aldadılır. Və əksəriyyət bunu normal qəbul edir. Əvvəlki, təbii həyat tərzi lağa qoyulur. İstənilən bir zərərli şeyi yenilik adı ilə bir az reklam etməklə insanların beyninə, əlinə, mədəsinə, evinə "oturtmaq" mümkündür.

Bütün bunlar qlobal zombiləşdirmə planının tərkib hissə-



sidir. İdarə olunan biorobot kütləsi formalaşdırmaq. Bu qlobal terror o qədər güclü və hərtərəflidir ki, çox az adamın özünü qorumağa, normal halında dəyişmədən qalmağa gücü çatır. Bunun üçün, böyük informasiya bazasına, intellektual düşüncə tərzinə, analitik təfəkkürə malik olmaq tələb olunur. Kütlə psixologiyasını dərindən bilən, bu sahədə çox güclü tədqiqatlar aparıb kütləleri idarə etmə və istənilən kimi dəyişdirmə üsullarını tapan qüvvələrlə müqayisədə adi insanların özünü müdafiə etmə imkanları zəifdir. Lakin bunlardan yalnız birinə- düşünə bilmək qabiliyyətinə malik olmaq bu terrordan özünü qorumağa kifayət edəcək həddədir.

Dekart ona görə deyirdi ki, düşünürəmsə, varam". Yalnız düşünə bilən insan mövcuddur, beynindən istifadə etməyən, düşünə bilməyən adam həqiqəti görə bilmir, düşməni tanıya bilmir və o, məğlub olmağa məhkumdur. Döyüşmədyin müharibəni qazana bilməzsən. Çünki, necə deyərlər, döyüşən adam bəlkə məğlub ola bilər, amma döyüşməyənlər lap başdan məğlubdur.

Virtual həyatı rədd edib, real həyata dönməliyik, imitativ psixologiyadan qurtulmalıyıq. Beyinlərimizə, düşüncələrimizə sahiblik uğrunda döyüş gedir. Bu döyüşdə uduzmağa haqqımız yoxdur!

GLOBAL TERROR

**Elçin Bayramlı**




# Britaniyada vətəndaş müharibəsi?

## *Ölkədə miqrantlara qarşı şiddətli etirazlar davam edir*

Böyük Britaniya iğtişaşlar dalğası ilə əhatə olunub. Etirazlar Southportda üç uşağın öldürülməsindən sonra başlayıb. Ehtirasların intensivliyi daha çox cinayətkarın şəxsiyyəti ilə bağlı dezinformasiya ilə bağlı idi. Cinayətdən dərhal sonra onun Böyük Britaniyaya qayıqla gələn Uels paytaxtı Kardiffdə Ruandalı mühacirlərin ailəsində doğulduğu bildirilib. Lakin bundan əvvəl də sosial şəbəkələrdə cinayətkarın Böyük Britaniyaya dəniz yolu ilə qeyri-qanuni gəlmiş sığınacaq axtaran şəxs olması barədə məlumatlar yayılmışdı. Sosial şəbəkələrdə də yayılan başqa bir versiyaya görə, kiçik qatil radikal müsəlman olub.

Bu dezinformasiya dərhal "Uşaqlarımızı xilas edin" və "Qayıqları dayandırın" şüarları altında açıq-aşkar İslam və anti-immiqrant çalarları ilə ifrat sağçıların etirazlarına səbəb oldu. Çərşənbə axşamı Sautportda məscidə hücumla müşayiət olunan ilk etirazlardan qısa müddət sonra iğtişaşlar Böyük Britaniyanın digər şəhərlərinə - Liverpul, Bristol, Hull kimi şəhərlərə yayıldı. Həftəsonuna kimi tamaşaların intensivliyi artdı, coğrafiyası genişləndi. İğtişaşlar hətta Şimali İrlandiyanın Belfastına da yayılıb. Nəinki miqrantlara qarşı çıxanların, hətta özünü irqçiliyə qarşı döyüşçü kimi qələmə verənlərin də ötən həftə sonu etiraz aksiyası keçirməyə qərar verməsi vəziyyəti daha da gərginləşdirib.

Nəticədə onlarla insan, o cümlədən bir neçə asayiş keşikçisi küçə iğtişaşlarında, qarşı tərəfin bir-birinə butulka və kərpic atması, dükanları və polis məntəqəsini yandırması nəticəsində xəsarət alıb.

Böyük Britaniyada sonuncu dəfə oxşar hadisə 2011-ci ildə baş vermişdi: polis qaradərilini güllələdikdən sonra ölkədə 5 gün ərzində iğtişaşlar davam etdi. Bu dəfə küçə zorakılığının miqyası daha təvazökar olsa da, mərkəzi orqanları ciddi narahat etməyə kifayət etdi. Şənbə günü Böyük Britaniyanın Baş naziri Keir Starmer yüksək səviyyəli nazirlərlə brifinq keçirərək, "icmaları qorxutmaqla nifrət yaymağa" çalışan ekstremistlərlə mübarizədə tam dəstək vəd edib.

İğtişaşlar başlayandan az sonra bir sıra Britaniya mediası, xüsusilə Daily Mail əminliklə yazıb









sığınacaq axtaran şəxs, başqa versiyaya görə isə radikal islamçı olması barədə şayiələr yayılıb. Bəzi Britaniya mediası bu şayiələrin yayılmasında və iğtişaşların qızışdırılmasında "Rusiya izini" gördü, Rusiyanın Londondakı səfirliyi bunu qəti şəkildə təkzib etdi.

İngiltərədə son 13 ildə ən geniş yayılmış iğtişaşlar İngiltərənin şimal-qərbində Southport şəhərində üç kiçik qızın öldürülməsindən sonra baş verib. İyulun 29-da onlara uşaq rəqs və yoqa studiyasında dərs zamanı bıçaqla hücum edilib. Daha bir neçə uşaq və iki böyük ağır yaralanıb. Hadisədən isti keçən polis 17 yaşlı yeniyetməni saxlayıb.

Daha sonra Liverpul Sülh Məhkəməsi onu üç nəfəri öldürməkdə, daha on nəfəri öldürməyə cəhddə və bıçaqlı silaha sahib olmaqda ittiham edəndə cinayətkarın adı və keçmişi məlum oldu: şəxsiyyətinin açıqlanmaması qaydasına zidd olaraq azyaşlı şübhəlilər, məhkəməyə onun adının Axel Muganwa Rudakubana olduğu və




ki, guya ifrat sağçıların etirazlarını qızışdırmaqda Rusiyanın izi var. Ötən cümə axşamı tabloid "Rusiya məscidlər ətrafında iğtişaşlara səbəb olan saxta xəbərlərlə əlaqə saxlayır" başlığı ilə məqalə dərc edib. Bu qənaətə müsəlman cinayətkar haqqında yayılan saxta xəbərin mənbəyinin müəyyən şübhəli xəbər saytı olan Channel3 Now olması əsas götürülüb. Və bu sayt ABŞ-da qeydiyyatdan keçsə də, qəzet onun Rusiya ilə bağlı olduğu barədə cəsarətli fərziyyə irəli sürür.

Rusiya tərəfi bu və buna bənzər nəşrlərə cavab verib. Avqustun 2-də Rusiyanın Londondakı səfirliyi ölkədə iğtişaşların qızışdırılmasında Rusiyanın iştirakı ilə bağlı bütün xəbərləri təkzib edib. Səfirlik bildirib ki, "Səfirlik keçmiş kəşfiyyat rəsmilərinin məsuliyyətsiz şərhlərindən qaynaqlanan KİV-in Böyük Britaniyada sosial gərginliyin artmasında Rusiyanın hansısa şəkildə günahkar olması ilə bağlı xəbərlərini qəti şəkildə rədd edir".

**V.SALAH**

# Azad edilmiş ərazilərdə müasir şəhərsalma nümunəsi təqdim edilir

***Əsas hədəf Böyük Qayıdış Proqramının icrasını tez başa çatdırmaqdır. Tarixi Zəfərimizdən sonra Dövlət Proqramlarının qəbulunda da yeniliklərə, təkmilləşməyə böyük zərurət duyuldu. Dövlət başçısı İlham Əliyevin Fərmanı əsasında iqtisadi rayonların yeni bölgüsünün həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması tarixi Zəfərimizdin yaratdığı reallıqların təqdimatı oldu.***

Bu Fərmanın ardınca cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» təsdiqləndi.

### Dayanıqlı inkişaf üçün böyük potensial

Hər iki sənəd işğaldan azad edilmiş ərazilərimizin malik olduqları potensial imkanların təqdimatında öz sözünü dedi. Belə ki, gələcəkdə bu torpaqlarımızın malik olduqdarı təbbi resursların hesabına Azərbaycanın dayanıqlı inkişafına dəstək vermək üçün bu ərazilər arasında ixtisaslaşmanın aparılmasına, hansı resurslara malik olmalarının müəyyənləşdirilməsinə böyük zərurət duyuldu. İşğaldan azad edilmiş torpaqların malik oluqları potensialı da nəzərə alsaq gələcəkdə dayanıqlı inkişafa nail olmaq üçün böyük potensialı görürük. Belə ki, bu ərazilərimizin malik olduqları münbit torpaqların hesabına Azərbaycanın ixrac potensialı xeyli artacaq. Ölkə Prezidenti İlham Əliyev bu istiqamətdə də yeni bazarların tapılması üçün müvafiq tapşırıqlarını verib. Dövlətimizin başçısının Sərəncamı əsasında təsdiqlənən Milli Prioritetlərdə də bu hədəf xüsusi yer alır ki, Qarabağ bölgəsi yaşıl enerji zonası kimi dünya üçün bir nümunə olacaq. Prezident İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda bu reallıqlara da diqqəti yönəltdi ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan coğrafi baxımdan da eyni regiondur. Onlar yaşıl enerji zonaları elan edilib. BP tərəfindən inşa olunan Günəş Elektrik Stansiyası Cəbrayıl rayonunda tikiləcək. Naxçıvanda 500 meqavat gücündə Günəş Elektrik Stansiyası ilə bağlı böyük planımız var. İkinci Qarabağ müharibəsi bitdikdən sonra hidroelektrik enerjisi sahəsinə vəsait yatırılıb. Bu üç il ərzində 270 meqavat həcmində su elektrik stansiyaları artıq fəaliyyətdədir. Bu rəqəm 500 meqavata çatdırılacaq. Bu, regionu tam əhatə etməyə kifayət edəcək. Tam inteqrasiya olunmuş elektrik kabeli layihəsi həyata keçirildikdən sonra Qarabağda istehsal edilən elektrik enerjisi Azərbaycanın digər bölgələrinə nəql olunacaq: "Bizim əsas investorlarımız xarici şirkətlərdir. Azərbaycan burada kiçik pay sahibi kimi çıxış edir. Bu, o deməkdir ki, bizim ölkədə biznes mühitimiz və sərmayə imkanlarımız, sərmayə qarşılığında gəlir əldə edilməsi baxımından çox uğurlu bir mövqedəyik. Əks təqdirdə, heç kəs bura bir dollar belə vəsait qoymazdı. Dediyim kimi, artıq iki qiqavata yaxın həcmlə bağlı qərarlar verilib və ümumilikdə, 10 meqavat həcmində saziş və memorandumlar imzalanıb. Gələn il buraya gələndə görəcəksiniz ki, bu region tamamilə yaşıl enerji regionuna çevrilib."

### COP29 ölkəmizin bütün sahələrdə qazandığı uğurların təqdimatı olacaq

Cari ilin mühüm hadisələrindən olan COP29 ölkəmizin bütün sahələrdə qazandığı uğurların təqdimatı olacaq. Bu mötəbər tədbir Azərbaycanın yaşıl enerji tərəfdaşlarının sayının artmasında və əməkdaşlığın coğrafiyasının genişləndirilməsində, yeni formatların yaranmasında stimulverici amil olacaq. Azərbaycanın yaşıl enerji sahəsində böyük potensiala malik olduğu bir daha tədbirdə əsaslı şəkildə diqqətə çatdırılacaq. Cənab İlham Əliyev bu çağırışı edir: Biz istəyirik ki, Azərbaycanda keçiriləcək COP29 məhz həmrəylik tədbiri olsun. Biz ona görə də bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişik. Demirəm ki, biz bütün hədəflərimizə tam şəkildə nail olacağıq, ancaq bu işə öz töhfəmizi verməyə hazırıq."

Tədbir postmünaqişə dövrünün reallıqlarının təbliğində öz sözünü deyəcək. Bu baxımdan ki, heç şüöhəsiz tədbir iştirakçılarının işğaldan azad edilmiş ərazilərə səfərləri təşkil ediləcək. Onlar ermənilərin və onlara dəstək verən dövlətlərin illərdir aparıqları yalan təbliğatın əksinə olaraq bu illər ərzində törətdikləri vəhşiliklərin şahidinə çevriləcəklər. Hazırkı dövrdə bu kimi tədbirlərin əhəmiyyəti yalnız əhatə etdikləri mövzu ətrafında aparılan müzakirələrdə və ümumi mövqenin ortaya qoyulmasında olmaqla yanaşı, həqiqətlərimizə daha aydın işığın düşməsi üçün yaradılan imkandadır. Dezinformasiyaların hazırkı dövrdə yaratdığı problemlərin fonunda bu tədbirlər həqiqətlərin işıq üzü görməsinə öz töhfəsini verir. Azərbaycanın COP29-a ev sahibliyi ilə bağlı qərarın qəbul edilməsindən bu gündək aparılan qərəzli təbliğatlar reallıqları ilə, bəzi dairələrin maraqlarından irəli gələn dezinformasiyaları özündə ehtiva edir. Cənab İlham Əliyev daim diqqətə çatdırır ki, biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Dövlətimizin başçısı daim bildirir ki, bizim günahımız deyil neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. İqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir.

İşğaldan azad edilmiş ərazilərdə yeni dövlət idarəetmə modelinin tətbiqi ölkə miqyasında mühüm məsələdir. Artıq Prezident İlham Əliyev tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa, tikinti və idarəetmə xidməti göstərmək üçün müvafiq publik hüquqi şəxslər yaradılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sənaye parkları, aqroparklar yaradılır. Hazırda Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası", Zəngilanda "Dost Aqropark"ı yaradılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm və yaşıl enerji potensialının reallaşdırılması ilə bağlı mühüm işlər görülüb, Şuşa, Ağdam və Kəlbəcərdə turizm obyektlərinin təməli qoyulub. Azad edilmiş ərazilərimiz böyük turizm potensialına malikdirlər. 30 ilə yaxın dövrdə mənfur düşmən bu potensialdan istifadə edərək özünün iqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışıb. Qarabağ Azərbaycanın əsas turizm zonasına çevriləcək. Beynəlxalq turizm sərgilərində Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstəriləcək. Təmir-bərpa işləri yekunlaşdıqdan sonra Qarabağ turistlərin sevimli məkanlarından biri olacaq.



*Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, bütün regionlarımız, o cümlədən tarixi sahibinə qovuşan torpaqlarımız yeni inkişaf dövrünü yaşayır*

### Məşğulluğun təmin edilməsi prioritetdir

30 illik işğal dövründə çətinlik şəraitində yaşayan soydaşlarımızın rahat yaşayışı üçün bütün zəruri işlər görülməlidir. Bu gün vətəndaşlarımızın qayıtdıqları ünvanlarda yaradılan şəraitə diqqət yetirmək kifayətdir. Cənab İlham Əliyev vurğulayır ki, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar. Onların məşğulluğunun təmin edilməsi prioritet məsələlər sırasındadır. Sosial xidmətin təminatı üçün bu ərazilərdə də "ASAN xidmət", DOST mərkəzlərinin yaradılması qarşıda dayanan hədəflər sırasındadır. İlk "ASAN xidmət" Şuşa şəhərində tikilib. Növbəti mərkəzin isə Füzulidə tikiləcəyi bildirilir. Tarixi sahibinə qayıdan torpaqlarımız «ağıllı şəhər» və «ağıllı kənd» layihləri üzrə yenidən qurulur. Daim iklərə imza atan Azərbaycan bu gün «ASAN xidmət», DOST layihələrinin davamı olaraq «ağıllı şəhər» və «ağıllı kənd» konsepsiyası ilə diqqətdədir. Cənab İlham Əliyev bu hədəfi də açıqlayır ki, gələcəkdə digər bölgələrimizdə də bu layihələr tətbiq edilə bilər.

Tarixi Zəfərimizdən ötən dörd ilə yaxın dövrdə işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərin hamısını tam şəkildə qeyd etmək mümkün deyil. Çünki görülən işlərin miqyası olduqca genişdir. Bunun üçün təkcə dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın son aylarda işğaldan azad edilmiş ərazilərimizə səfərləri zamanı açılışında və təməlqoyma mərasimində iştirak etdikləri sosial obyektlərin say tərkibinə diqqət yetirmək kifayətdir. Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin andan olmasının 101-ci ildönümü günündə Füzuli və Laçın rayonlarında, Şuşa şəhərində oldular. Bu tarixdə Şuşa ilk sakinlərini qarşıladı. Müstəqillik Günündə isə Xocalı sakinləri doğma yurd-yuvalarına qayıtdılar. Prezident İlham Əliyev görüşdə qeyd etdi ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur. Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazıldı. Bu ilin sentyabr ayında Xankəndi şəhərinə ilk köç başlayacaq. Suverenliyimizin bərpasından ötən müddətdə Xocalıda, Xankəndidə aparılan genişmiqyaslı işlər, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı ümumi bərpa işlərinin aydın mənzərəsini yaradır.

### Şəhərsalmanın müasir nümunəsi

Göründüyü kimi, hazırkı dövrün əsas hədəflərindən biri işğaldan azad edilmiş ərazilərimizin bərpası və soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışıdır. Azərbaycanın iqtisadi imkanları hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olmağa əsas verir. Bu gün Azərbaycan şəhərsalmanın müasir təcrübəsini dünyaya təqdim edir. Ağdam və Zəngilan şəhərlərində Azərbaycan Milli Şəhərsalma Forumlarının keçirilməsi də bunun bariz nümunəsidir. Tədbir üçün məhz bu şəhərlərin seçilməsi təsadüfi deyil. Zəngilanın Ağalı kəndi ilk "ağıllı kənd", Ağdam şəhəri isə ilk «ağıllı şəhər» olacaq. Dövlətimizin başçısı İlham Əliyev ötən ili Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda 53 ölkədən 200-ə yaxın xarici qonağın və ümumilikdə 400 iştirakçının qatıldığını nəzərə alaraq bir daha diqqəti bu reallıqlara yönəltdi ki, biz sıfırdan yeni şəhər və kəndlər inşa edirik. Ona görə də burada müasir texnologiyalar tətbiq etməliyik ki, bununla da keçmiş köçkünlərimizə ən yaxşı şərait yaradaq. Onların bir hissəsi artıq qayıdıbdır. 2022-ci ildə birinci Şəhərsalma Forumu Ağdam şəhərində keçirildi. Həmin şəhər də sıfırdan inşa edilir, çünki o, işğal dövründə darmadağın edilmişdir. Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsidir ki, artıq burada keçmiş məcburi köçkünlər evlərinə qayıdıb. Ağalı "ağıllı kəndi"nə həyat qayıdıb. Orada sakinlər xoşbəxt yaşayırlar: "Mən Ağalı kəndində dəfələrlə olmuşam - sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, bizim torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar bu imkandan 30 il ərzində Ermənistan tərəfindən məhrum edilmişdi. Ancaq üç il əvvəl biz bu işğala son qoyduq."

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, bütün regionlarımız, o cümlədən 4 ildir tarixi sahibinə qovuşan torpaqlarımız yeni inkişaf dövrünü yaşayır. Dövlətimizin başçısı hər bir yeni təcrübənin ölkəmizə gətirilməsini və tətbiqini qarşıya mühüm vəzifə kimi qoyub. Qalib, bütövləşən Azərbaycana hansı sahədən diqqət yetirsək yeni texnologiyaların tətbiqi şəraitində davamlı uğurları görərik. Azərbaycan bu gün təkmil dirçəliş modeli, eyni zamanda, müasir şəhərsalma təcrübəsi ilə dünyanın diqqətindədir. Müxtəlif çağırış və qeyri-müəyyənliklər qarşısında iqtisadi cəhətdən inkişaf edə biləcək davamlı şəhərlərin qurulması ilə bağlı strategiyaların müzakirəsinə həsr edilən, fikir mübadiləsi və əməkdaşlıq üçün müxtəlif maraqlı tərəfləri, ekspertləri, siyasətçiləri və icmaları bir araya gətirən Foruma Azərbaycanın işğaldan azad edilmiş ərazilərin ev sahibliyi özündə bütün məqamları ehtiva edir. Azərbaycan yenilikçi ölkə kimi qazandığı mövqeyə daim yeni əlavələr edir.

**Yeganə Əliyeva**

# “Ermənistan ya bölünə, ya da ləğv oluna bilər”








***Rusiyalı politoloq, tanınmış publisist və ictimai xadim Dmitri Verxoturov “Caliber” analitik mərkəzinə müsahibəsində regionda gedən prosesləri analiz edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**— Rusiya sərhədçilərinin İrəvanın Zvartnots aeroportundan çıxarılmasını necə qiymətləndirirsiniz?**

— Görünür, Zvartnots aeroportu ilə bağlı məsələ məncə, bununla bağlıdır. Bu hava limanında Rusiya sərhədçilərinin işini dayandırmazdan bir müddət əvvəl erməni tərəfi Rusiya sərhədçilərinin guya öz səlahiyyətlərini aşması və müəyyən şəxsləri Ermənistana buraxmaması ilə bağlı hiddətlənib. Əslində, Ermənistan rəhbərliyi narahat idi ki, Rusiya sərhədçiləri hər dəfə pasportları yoxlayanda Qərb nümayəndələrinin Ermənistana gəlişini qeydə alırlar ki, bu gəlişlər də xüsusilə son vaxtlar nəzərəçarpacaq dərəcədə artıb. Yəni, Rusiya erməni tərəfi ilə Qərb nümayəndələri arasında bütün təmaslardan xəbərdar idi və bu, görünür, yerli hakimiyyəti gərginləşdirib. İndi isə Rusiya sərhədçiləri getdikdən sonra İrəvan çox güman ki, bu əlaqələri genişləndirəcək, lakin Moskvanın bu məlumatlara malik olmasından qorxmur.

**— Sizcə, Ermənistan bu ilin sonuna kimi KTMT-dən çıxacaqmı?**

— Paşinyanın məntiqini başa düşdüyümə görə, əgər məntiqi varsa, o, KTMT-dən çıxmaq istəyir, amma yenə də qorxur. O, yenə də ardıcıl olmasa da, bu istiqamətdə müəyyən addımlar atacaq. Görək, hansı formada olacaq. Hər halda, hesab edirəm ki, o, dərhal razılaşmanı pozub blokdan çıxacaq şəkildə deyil, tədricən, addım-addım vəziyyəti dəyişməyə çalışacaq.

**— Rusiya hərbi bazasının Gümrüdən çıxarılması aktual olacaqmı?**

— Düşünürəm ki, Gümrüdəki baza son fürsətə qədər qalacaq, çünki rus qoşunlarının mövcudluğu Ermənistandakı siyasi vəziyyəti həmişə bu və ya digər istiqamətdə, məsələn, rəngli inqilablar zamanı dəyişə bilər. Ona görə də Gümrü bazası öz yerində qalacaq və mümkün qədər saxlanılacaq.

**— Nikol Paşinyan Azərbaycana qarşı ərazi iddialarını özündə saxlayan Ermənistan Konstitusiyasına yenidən baxmaqdan imtina edib. Bu vəziyyətdə bu ilin sonuna qədər sülh sazişinin bağlanma ehtimalından danışmağa dəyərmi?**

- Mən Ermənistanla sülh sazişi mövzusunda dəfələrlə danışmışam və bunu ilk növbədə indi sarsılan Ermənistan dövlətçiliyinin özünü gücləndirmək üçün zəruri olan müsbət addım hesab edirəm. Amma gördüyümüz kimi, ermənilər bunu istəmirlər. Ona görə də onların indiki davranışlarını nəzərə alsaq, kağız üzərində imzalanmış müqavilənin, təəssüf ki, dəyəri azdır. Ermənistanın destruktiv mövqeyinə görə başqa variant qalmayıb. Buna baxmayaraq, hesab edirəm ki, hətta yalnız kağız üzərində bağlanmış sülh müqaviləsi belə müsbət addımdır və alqışlanmalıdır. Amma çətin ki, ilin sonuna qədər belə bir saziş imzalansın, bilər: bu Ermənistan bizə hər hansı bir qabiliyyətdə lazımdır, ya yox? Üstəlik, Ermənistanın Rusiyaya heç bir faydası yoxdur və gözlənilmir. Əgər hər şeyi öz adı ilə çağırası olsaq, o zaman Ermənistanın Rusiya üçün dəyəri sıfıra yaxındır. Hətta daha çox deyərdim- Moskva üçün Ermənistan qulpsuz, daşıması çətin, atılması heyf olan çamadana bənzəyir.

**— Ermənistan-Rusiya münasibətləri gələcəkdə tam pozula bilərmi?**

- Məncə, İrəvanda bunu bacarırlar. Məhz buna görə, artıq dediyim kimi, Ermənistanın heç bir faydası yoxdur. Rusiyaya qarşı açıq-aşkar qeyri-dost, bəzi yerlərdə isə düşmənçilik siyasəti yürüdən ölkədən nə gözləmək olar? Ona görə də Moskva Ermənistanla yaxın münasibətləri dayandırmaq qərarına gələ bilər. Ermənistan demək olar ki, bu fikir də Ermənistanın bununla bağlı açıq-aydın ifadə olunmuş istəyinin olmamasına əsaslanır.



**—Ortamüddətli perspektivdə Ermənistanın Qərbə son dönüşünə icazə verirsinizmi?**

- Maraqlı sualdır. Məsələ burasındadır ki, Moskvada Ukrayna hadisələri ilə bağlı əvvəllər sarsılmaz görünən bir çox anlayışların yenidən qiymətləndirilməsi aparılır. Məsələn, “təsir dairəsində olmaq” anlayışı. Bəli, Rusiya iki-üç onillik bundan əvvəl bütöv respublikaları dəstəkləməyə imkan verən siyasət yürüdürdü, onlara hər cür köməklik göstərirdi, yetər ki, sözdə rusiyapərəst olsunlar, əslində isə bəziləri Qərblə yaxın münasibətlər qurdular. Ancaq indi Rusiya sualı boş qoya özümüzünkü kimi olan Ukrayna nümunəsindən heç vaxt heç nə öyrənməyib. Buna baxmayaraq, müəyyən bir vəziyyətdə qərar verdik və seçimimizi etdik və indi Ukrayna bizim düşmənimizdir. Ermənilərlə bu, Ermənistanın indiki mövqeyinə görə daha asan və tez baş verəcək.

Digər tərəfdən, aşağıdakı nüans var. Ermənistan Rusiyanın dəstəyini tamamilə itirərsə, bir neçə mərhələdə ya bölünə, ya da ləğv oluna bilər. Cənubi Qafqazda mahiyyətcə problem və bitib-tükənməyən münaqişələr mənbəyi olan regiondan bir ölkə yox olarsa, heç kim təəssüflənməz. Deməli, ermənilərin özlərindən, gələcəkdə özlərini necə aparacaqlarından çox şey asılıdır. Mən qətiyyən istisna etmirəm ki, Ermənistan siyasətini belə acınacaqlı ssenariyə gətirib çıxara biləcək istiqamətə yönəldəcək.



***Tərcümə - Elçin Bayramlı***

# Bənövşə, bəndə düşə, bizdən sizə kim düşə?..

***Hər saniyə daha çox virtuallaşan həyatımızda çoxdan rəqəmsal müstəviyə keçən sosiallaşma ehtiyacımız bizi var edən ən təməl ehtiyaclardan biridir. Üzbəüz ünsiyyət hər bir insanın mənəvi qidasıdır və biz bu qidanı hər gün almalıyıq. Necə ki, su içir, hava ilə tənəffüs edirik, eləcə də mənəviyyatımızı doyurmaq üçün sosial ehtiyaclarımızı da ödəməliyik. Xüsusilə uşaqların virtual dünyadan qopub real dünyada əyləncə tapa bilmələri, real ünsiyyət vasitəsi ilə oyun oynamaları onların sağlamlığı üçün çox vacibdir.***



Sirr deyil ki, bütün günü küçədə qaçıb-oynayan, yaşıdları ilə top qovan, kəndirdən atlayan uşaqların öz fiziki və mənəvi inkişafına verdiyi töhfə, rəqəmsal oyunlarla vaxt keçirən uşaqlardan kifayət qədər çoxdur. Bu o deməkdir ki, küçə oyunları oynayan, yaşıdları ilə canlı sosiallaşan uşaqlar fiziki və əqli cəhətdən daha çox inkişaf edir.

Oyun uşaqlar üçün zəruridir. Küçədə oynayan uşaq həm əylənir, həm də əyləncə ilə ətrafı, həyatı öyrənir. Alman pedaqoq və filosof Fredik Frobelin dediyinə görə, oyun uşağın ən səmimi, ən real davranışı və özünü ifadə etmə üsuludur. Filosof deyir ki, uşaq əylənərək öyrənir, oyun zehni və ruhu birləşdirir. Küçədə oynayan uşaq öz hiss və düşüncələrini ortaya qoyur, sosiallaşır, həm oynayır, həm də oyun zamanı həyatı yaşayaraq öyrənir. Oyun oynayarkən uşaqda özünə inam hissi inkişaf edir, özünü ifadə etmək bacarığı qazanır. Komanda oyunları isə uşaqlarda etibar, güvən hissini artırır.





Ümumdünya Sağlamlıq Təşkilatının hesabatlarına görə, 5-17 yaş arasında olan uşaqların hər gün bir qayda olaraq idmana göndərilməsi, fiziki hərəkətə məcbur edilməsi vacibdir. Fiziki hərəkətə hər şey daxildir – rəqs etmək, kəndirdən atlanmaq, evdə təmizlik işləri görmək və yaxud sadəcə gəzmək. Həkimlər deyir ki, uşaqlarınıza yaxşılıq edin, onları virtual həyatdan qoparıb küçə oyunlarına yönləndirin, uşaqlar tər içində qalanadək futbol oynasın, velosiped sürsün, yıxılıb dizləri qanayanadək yaşıdları ilə qaçdı-tutdu oynasın.

Küçədə oynayan uşaq daim hərəkətdə olur. Buna görə də küçə oyunları uşaqların böyük və kiçik əzələlərinin inkişafı, həmçinin sümük sağlamlığı baxımından orqanizmə böyük töhfə verir. Bundan əlavə, uşağın dil inkişafı həmyaşıdları ilə ünsiyyət zamanı daha da irəliləyir. Küçədə dostları ilə vaxt keçirən uşaqlarda sevinc, etibar, inam, mərhəmət, dostluq və güvən kimi duyğular inkişaf edir. Uşağı sosial cəhətdən inkişaf etdirən küçə oyunları onun dostları ilə harmoniyada yaşamasına və başqalarına qarşı həssas insan kimi inkişaf etməsinə kömək edir. Dostları ilə dil tapan uşaq cəmiyyətə də asanlıqla uyğunlaşır. Küçə oyunları uşağa özünə inam, sərbəst qərar qəbuletmə təcrübəsi də aşılayır.

Tibb elmi deyir ki, uşaqların qaçdı-tutdu oynaması, ipdən atlaması, top dalınca qaçması onların həzm sisteminə, mədə-bağırsağın düzgün işləməsinə, qan dövranına, nəfəs almasına olduqca müsbət təsir edir. Xüsusilə, dərslərini hazırlamazdan və yatmazdan əvvəl uşaqların bu cür oyunlar oynaması daha qənaətbəxşdir. Uşaqların qrup halında oynaması onların ünsiyyət qurmasına, daha humanist və paylaşan olmasına xidmət edir. Qaçmaq, harasa dırmaşmaq, nəsə düzəltmək onların həm zehninə, həm də fiziki inkişafına kömək edir. Cəmiyyət içində necə davramağı da yoldaşları ilə oynayanda öyrənir, özünü ifadə etməyi bacarır.

Yeni nəsil virtual asılılığı davam etdirsə, gələcək nəsil böyük təhlükə altındadır. Həm psixoloji, həm də fizioloji olaraq deqradasiya gedəcək, cəmiyyətin sağlam təməli axsayacaq. Uşaqları hovuz yerinə dənizə, gölə aparın, kompyuter oyunları əvəzinə küçədə beşdaş, çilingağac, bənövşə oynasın, evdə gizlənmək yerinə bayırda qaçıb-yıxılsın, mikroblarla tanış olsun, immun sistemi inkişaf etsin, süni kondisioner havası yerinə həyətdə günəşin altında yansın, D vitamini qəbul etsin, təmiz havanı tənəffüs etsin, evdə valideynin çəkdiyi siqaretin passiv aludəçisi olmaq yerinə küçədə ağacların tozlarını udsun.



Uşaqlarınızı küçədə oynamağa göndərin, məcbur edin, lap evdən qovun. Amma əvvəlcə küçədə onlar üçün təhlükəsiz ərazi təyin edin, avtomobili olan qonşulara bu barədə məlumat verin. Fiziki iş, oyunlar, hərəkət sağlamlıq deməkdir, uşaqlarınızı küçə oyunlarından məhrum etməyin, evdə kompyuter arxasında sağlamlığını itirən uşaqlarınızı küçəyə sağlamlığını bərpa etməyə göndərin. Uşaqlar küçədə fiziki inkişaflarını gücləndirən küçə oyunları oynamalıdır, bu onların gələcəyi üçün çox vacibdir. Qoyun onlar da ipdən hoppansınlar, top qovalasınlar, şüşə düzüb qoz atsınlar, bənövşəni bəndə salsınlar, girov düşən yoldaşlarını xilas etsinlər, küçə boyu yumru daş axtarıb beşdaş oynasınlar. Daha sağlam ruh, daha güclü bədən üçün buna ehtiyacları var.

***Lalə Mehralı***

# Əli Kərimli cəmiyyətin üz qarasına çevrilir

İnsan özünə peşə seçəndə ilk vaxtlar bir qədər çətinlik çəkir büdrəmələrə, səhvlərə yol verir. Lakin vaxt keçdikcə peşə sahibi tədricən qazandığı təcrübə əsasında işində dönüş edir, müsbət nailiyyətlər qazanır, uğurlar əldə edir. Təəssüflər olsun ki, elə peşə, sənət sahibləri var ki, uzun illər eyni məkanda çalışsalar da yenə də kobud yanlışlıqlara yol verir, o sənəti, peşəni gözdən salan əməllər törədirlər. Belə insanlara nə ad verildiyini deməyə çətinlik çəksəm də, bildiyim ondan ibarətdir ki, çalışdığı peşənin, sənətin incəliklərini, dərin sirlərini mənimsəməyi bacarmayanlar bədbəxt adamlardır. Belələrinin siyasət də olması daha faciəvidir. Çünki digər peşə sahiblərindən fərqli olaraq siyasətçi nəinki təmsil olunduğu düşərgənin, ümumiyyətlə, cəmiyyətin diqqət mərkəzində olur.



Həmin siyasətçinin səhvləri, yanlışlıqları bəzən cəmiyyətin adına yazılır. Misal olaraq, daima dövlətçilik maraqlarına, milli mənafeyə qarşı qərəzli siyasət yürüdən AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin Azərbaycan cəmiyyətinin üzqarası olaraq təqdim olunmasını göstərmək olar. Bu məxluqlar uzun illər siyasətdə olmalarına baxmayaraq cüzi belə irəliyə doğru addım atmayıblar, hansısa uğur qazana bilməyiblər. Yəni, 30 ildən çoxdur ki, eyni zurnada eyni havanı ifa edirlər. Fikir verilsə açıq şəkildə görmək olar ki, dağıdıcı müxalifət düşərgəsində təmsil olunan şəxslərin hamısı eyni boyda, biçimdə və düşüncədədir. Danışıqları, özlərini aparmaq qaydaları da eynidir. Sanki inqubator aparatından çıxan cücələrdir. Kənddə yaşayanlar bilirlər, qonşunun xoruzu banlayanda dərhal digər həyətlərin toyuğu-xoruzu da səsə səs verib banlayırlar.

**Fuad Qəhrəmanlı dedi-qodularını ictimai siyasi vəziyyətin müzakirəsi kimi qələmə verir**

### Fuad Qəhrəmanlı dedi-qodu xəstəliyinə mübtəla olub

Oxşar proseslər Əli Kərimlinin və Cəmil Həsənlini meydan suladıqları dağıdıcı düşərgədə də yaşanır. Azərbaycana qarşı düşmən mövqe sərgiləyən hansısa xarici ölkədə kimlərsə bayquş kimi səs çıxartsalar, C.Həsənli və Ə.Kərimli vatçapda yaratdıqları qrupda həmin səsi tezis formasında paylaşırlar. Həngamə də ondan sonra başlayır. Qrupun trolları ağız-ağıza verib ölkəmizin imicini ləkələməyə, milli varlığımızı təhdid etməyə hesablanan şər və böhtanlarını geniş şəkildə paylaşırlar. Diqqətçəkən məqam ondan ibarətdir ki, keçirdikləri toplantılarda, İnternet TV-lərə verdikləri açıqlamalarında səsləndirdikləri dedi-qodu xarakterli fikirlərinə ictimai siyasi vəziyyətin müzakirəsi donunu geyindirməyə çalışırlar. AXCP sədrinin müavini, baş trol olmaq iddiasına düşən Fuad Qəhrəmanlı sosial şəbəkə hesabında yazır: "AXCP Xətai şöbəsinin növbəti rayon məclisi keçirildi... Sonda ictimai-siyasi vəziyyətlə bağlı müzakirələr aparılıb, dünyada və ölkəmizdə baş verən hadisələr barədə məclis üzvlərinə geniş məlumat verildi". Bu yerdə el məsəli yada düşür: "Gicin dəlidən fərqi onların hərəkətlərində və danışığında hiss olunar". İnandırıcı deyil ki, dəli yığnağı kimi bir şey olan AXCP Xətai şöbəsinin rayon məclisinin toplantısında ağıllı fikirlər söylənilsin. Heç şübhəsiz ki, toplantıda hakimiyyətə böhtanlar atılıb, xalqını sevən insanlar haqqında şər və böhtanlar səsləndirilib. Bütün bunların fonunda F.Qəhrəmanlının "AXCP Xətai şöbəsinin rayon məclisinin toplantısında dünyada və ölkəmizdə baş verən hadisələr barədə müzakirələr apardıq" deməsi abırsızın açıq şəkildə həyasızlıq etməsi deməkdir.

### Gültəkin Hacıbəyli heç zaman ümidlənməsin

Dağıdıcı ünsürlər səslərinin gur çıxması xəyalı ilə Gültəkin Hacıbəyli, Nazim Məmmədov, Ramiz Tağıyev və digər sözəbaxan məxluqları özlərinə yoldaş edirlər. Halbuki, sözügedən bu şəxslər zamanında Əli Kərimlini, Cəmil Həsənlini, İsa Qəmbəri, Arif Hacılını ən sərt formada tənqid və təhqir edən şəxslər idilər. Gültəkin Hacıbəyli deputat olduğu o əyyamlarda ləyaqətli şəxsləri şantaj etməklə yığdığı var-dövlətin miqyasını bir qədər də artırmaq üçün Əli Kərimlini, Cəmil Həsənlini, İsa Qəmbəri və Arif Hacılını "satqınlar", "xəyanətkarlar", "erməni nökərləri" adlandırırdı. Elə ki, deputat seçilmədi və zibil qutusuna atıldı, dönüb oldu "milli demokrat". Başladı dünən söyüb təhqir etdiyi dağıdıcı müxalif başbilənlərini bu gün tərifləməyə. Hətta özünə məxsuz vasitələrdən istifadə etmək Ə.Kərimlinin və C.Həsənlinin təşkil etdikləri mitinqlərdə peyda olub, müxtəlif pozalarda şəkillər çəkdirib, sosial şəbəkələrdə paylaşdı. Düşündü ki, bu metodunu işə salmaqla artıq müxalifətçidir. Həm də elə zənn etdi ki, bundan sonra Əli Kərimli, Cəmil Həsənli ona etimad göstərib, təşkil etdikləri tədbirlər də yuxarı başda oturdacaqlar. Lakin anlamır ki, Ə.Kərimli və C.Həsənli xalqdan qisas almaq üçün şeytanın özü ilə belə iş birliyinə getməkdən imtina etməzlər. G.Hacıbəyli onu da anlamalıdır ki, Ə.Kərimli və C.Həsənli ondan bir alət olaraq istifadə edirlər, heç bir halda ona inamları yoxdur, keçmiş hörmətsizliklərini də unutmayıblar.

Xatırlatmaq lazımdır ki, Səhiyyə naziri olarkən Əli İnsanov Müsavat başqanı İsa Qəmbərə diqnoz qoyduğunu bildirmiş və qeyd etmişdir ki, İ.Qəmbər "rəsmən şizofrenik xəstədir". Ancaq ifşa olunub, məhşər ayağına çəkilən də Ə.İnsanovun yanaşması dəyişdi və İ.Qəmbər dönüb oldu sağlam, ağıllı müxalifət lideri. Hətta bir neçə illik "istirahət"dən qayıtdıqdan sonra Ə.İnsanov Əli Kərimlinin, Cəmil Həsənlinin, İsa Qəmbərin və Arif Hacılının təşkil etdikləri toplantılara qatılıb, babası Leninsayağı alovlu çıxışlarda etdi. Ancaq bu gediş də çox çəkmədi. Ə.İnsanov kursunu dəyişib, oldu adı elmə məlum olmayan nəsə. Əminliklə demək olar ki, uzaqdan fit çalıb, G.Hacıbəyliyə əl edilsə qaça -qaça, yolda yorulsa sürünə-sürünə işarə verilən yerə gedər. Ancaq anlamalıdır ki, bizim cəmiyyət ikiüzlüləri, satqınları sevmir, xəyanət yolu tutanlara nifrət edir. Ona görə də, G.Hacıbəyli heç zaman ümidlənməsin. O elə Əli Kərimlinin, Cəmil Həsənlinin trolu olaraq dağıdıcı düşərgədə qalacaq və beləcə yaşayıb, tarixin zibilliyinə atılacaq.

*İLHAM ƏLİYEV*

# Musiqili müharibə

FELYETON

*Nə etməli, karlıq fiziki qüsurdur. İnsan övladının heç istəmədiyi bir çatışmazlıqdır. Bu qüsur anadangəlmə olanda insan buna birtəhər alışır. Çünki gözünü açandan bu çatışmazlıq olur, onunla böyüyür, ona çox da elə qəribə gəlmir.*



Lakin bu fiziki qüsur sonradan qazanılanda insan ikiqat narahat həyat keçirir. Məsələn, kar insanlara məxsus bir xüsusiyyət var, onlar ucadan danışırlar. Belə hesab edirlər ki, ətrafdakı insanlar onları eşitmir. Ancaq əslində bunun ətrafdakılara heç bir dəxli yoxdur. Onlar normal dərəcədə danışılan söhbətləri eşidirlər. Arada pis vəziyyətdə qalan bu fiziki qüsurlu insan olur. Çünki ətrafdakı insanların hamısına maraqlı gəlir ki, İlahi, bu görəsən niyə çığırır. "Niyə çığırırsan",- deyə soruşanda isə yəqin ki, utanır.

Yenə də Allah uzaq eləsin, son zamanlar bilmirəm havadandır, sudandır, ya qidalarımızdandır, karlaşma kütləvi şəkildə baş alıb gedir. İnanın ki, xərçəng xəstəliyi qədər yayılıb. Adamın ürəyi yanır, baxırsan ki, əsasən gənc insandır, bu dərdə mübtəla olub. Elə xərçəng kimi, bu qüsur da cavan, qoca tanımır, kimi harada gəldi yaxalayır, vallah. Amma cavanlaşma daha çoxdur. Bəlkə də söhbətim qəribənizə gəlir. Amma gözümlə görüb, qulağımla eşitməsəydim, mən də sizlər kimi bu mövzuda söhbətə məəttəl qalardım.

Son zamanlar bu cür qüsuru yaşayan insanlarla bağlı qarşılaşdığın mənzərələr haqqında danışım, siz də qulaq asın. Məsələn, oturmusan iş yerində-otaqda. Birdən hiss edirsən ki, başına musiqili bir zərbə enir. Bu səs haradan gəlir, ora çönürsən, bura çönürsən, haradan gələcək, bayırdan. Maşınlar bir-bir pəncərənin altından ötdükcə, musiqilər də dəyişir. Yəni otaqda oturanların hər birinin zövqünə uyğun. Ta bir gün ərzində o janrda musiqi qalmır ki, dinləməyəsən. "Nəyi pisdir ki, əslində bunun? İnsanın beyni təzələnər də",- deyərsiniz.

Bəli, elədir, lakin səsi bir qədər alçaqdan olsa, hə, siz deyəndir. Amma musiqili zərbədən danışıram axı: gup, gup, gup...

Nə deyim bu yaya, yenə gəldi çıxdı. Yenə pəncərələr bağlı olanda bu, musiqili zərbə idi ey. Elə ki, pəncərələri istidən açmaq məcburiyyətində qalırsan, musiqili müharibə başlayır. Elə bir üstünə artilleriya yeriyir, sadəcə bu artılleriya musiqili artilleriyadır.

Həmçinin də küçədə. Sakitcə yol ilə getdiyin yerdə elə bir musiqili bir silahla sənə atəş açırlar. İnanın, inanın da deyirəm, bəlkə hələ rastlaşanlar da olub, qorxub bir tərəfə çəkilirsən ki, gələn bu təhlükədən özünü müdafiə edəsən. Elə hiss edirsən ki, maşın bu dəqiqə partlayacaq, parçaları üstünə töküləcək.

Vallah, sözün həqiqi mənasında, adam ürək ağrısı yaşayır. İnsanlar axı nə üçün kütləvi şəkildə bu fiziki qüsura məruz qalırlar. Görəsən hansısa genetik modifikasiya olunmuş məhsulun təsiridirmi, yoxsa mənəvi modifikasiyadır, nədirsə, karlaşma gündən-günə çoxalır. Axı yuxarıda da dedim, kar insanlar elə bilirlər ki, ətrafda onları eşitmirlər. Ona görə də ucadan danışırlar. Elə musiqili zərbələr də maşındakı kar insanın düşüncəsindən doğur.

Vallah, kar olmayasan, belə səsli maşında əyləşəsən, adamın başına hava gələr. Hələ bəzən həmin maşınların içərisi gənclərlə dolu olur. Düşünürsən ki, vay, bax, bu yazıqların hamısı fiziki qüsurludur. Amma bir məsələyə tamamilə əminəm ki, onlar anadangəlmə kar deyillər, bu qüsuru sonradan, yenə deyirəm hansı səbəbdənsə qazanıblar. Allah, özü köməkləri olsun.

***Mətanət Məmmədova***

# Noyabrda məktəblərdə 17 gün tətil olacaq



Nazirlər Kabinetinin qərarı ilə ölkəmizdə fəaliyyət göstərən orta məktəblərdə (xüsusi təhsil müəssisələri istisna olmaqla) payız tətilinin vaxtı dəyişib. Sözügedən qərarla ümumi təhsil pilləsi üzrə 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili olacaq.

Noyabrın 9-10-nu və 23-24-ü şənbə və bazar günlərinə təsadüf edir. Həmçinin 8 Noyabr Zəfər Günü və 9 Noyabr Dövlət Bayrağı Günü qeyri-iş günləridir. 9 noyabr şənbə gününə düşdüyü üçün 11 noyabr da qeyri-iş günü olacaq.

Beləliklə, orta məktəblərdə tətil ümumilikdə 8 noyabrda başlayacaq və tam 17 gün – 25 noyabra qədər davam edəcək. Noyabrın 25-i dərs günü olacaq. Qeyd edək ki, noyabrda həftəsonlarını da hesablasaq, cəmi 10 gün dərs olacaq.





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ata olmaq yox, atalıq etmək çətindir

***Əksəriyyətimiz qadınların doğuşdan sonra depressiya yaşadığı barədə eşitmişik, bəzilərimiz yaşamışıq, bir çoxumuz da müşahidə etmişik. Amma tək analar yox, atalar da həyat yoldaşının doğuşundan sonra depressiyaya düşə bilir.***



Mütəxəssislərin fikrincə, kişilərin doğuşdan sonra depressiyaya düşməsinin əsas səbəbi işsizliklə, gəlir azlığı, uşağın maddi təminatını ödəməyi bacara, ən əsası isə, yaxşı ata ola bilməmək qorxusu ilə əlaqəli olur.

"Cerebral Cortex" elmi jurnalında dərc olunan yeni araşdırma, atalığın kişilərin beynini dəyişdirdiyini sübut edib. ABŞ və İspaniyadan bir elmi qrup 40 kişi üzərində ilk övladının doğulmasından əvvəl və sonra beyin analizi aparıb. Kişilərin ata olduqdan sonra beyinlərində dəyişiklik olduğunu deyən alimlər bu dəyişikliyin qadınlara nisbətən daha az olduğunu da müşahidə edibər. Tədqiqat göstərib ki, kişilərin beyinlərində körpələri dünyaya gəldikdən sonra həssaslıq artır.

Alimlər deyirlər ki, həm qadınlar, həm də kişilər ata-ana olduqdan sonra bir sıra hormonal və psixi dəyişikliklər yaşayırlar. Əslində ata olmaq da ana olmaq kimi bioloji hadisədir. Hamiləlik və analıq qadın orqanizmində bir çox mühüm hormonal dəyişikliklərə səbəb olur və qadın bu hormonal dəyişikliklərə görə analıq hissinin təbii olaraq daha yüksək yaşayır. Kişilər uşaq dünyaya gətirmədiklə-





ri üçün onların hormonlarında atalıqla bağlı heç bir dəyişiklik olmadığına dair ümumi bir baxış bucağı vardı. Lakin bir çox araşdırmalar bunun əksini göstərdi. Ata olmaq kişilərdə də hormonal dəyişikliklərə səbəb olur, lakin bu dəyişikliklərin miqyası və xarakteri insandan insana dəyişə bilər.

Ata olduqdan sonra kişilərdə testosteron səviyyəsinin azaldığı da müşahidə edilən dəyişikliklərdəndir. Bu azalmanın səbəbinin qidalanma, yuxu rejiminin dəyişməsi, habelə qayğı göstərməyin artması olduğuna inanılır. Ənənəvi olaraq qadınlarda ana südü ilə əlaqəli olan artan prolaktin hormonu atalıq dövründə kişilərdə də artır. Atalarda yüksək prolaktin səviyyəsi daha çox körpə ilə təmas hallarında olur. Araşdırmalar göstərib ki, kişilər ata olduqdan sonra onların oksitosin səviyyəsi də yüksəlir və bu, atalarla uşaqları arasında bağlanma, yaxınlaşma prosesini asanlaşdırır.

Doğuşdan iki həftə sonra analarla aparılan araşdırmada, uşaqları ilə ünsiyyət qurduqda anaların beynində hansı bölgələrin dəyişikliyə məruz qaldığı müşahidə edilib. Məlum olub ki, körpəsi dünyaya gəldikdən sonra qadınların beynində narahatlıq ifadə edən bölgə həssaslaşır. Yəni anaların həssaslığı onların beynində narahatlıq ilə assosasiya olunur.

Eyni araşdırmada kişilər araşdırılarkən məlum olub ki, kişilərdə bu vəziyyət altı aydan sonra baş verir. Uşaqları ilə daha çox vaxt keçirən kişilərdə atalıq hissi nisbətən daha tez oyanır. Yəni, atalıq, uşağı qucağına alan kimi hiss olunan bir duyğu deyil, zamanla inkişaf edən bir duyğudur. O da məlumdur ki, kişilərin atalıq hissini tez qavramaları üçün ilk növbədə hamiləlik prosesini həyat yoldaşları ilə paylaşmalı, doğum anında həyat yoldaşlarının yanında olmalı, uşağın gündəlik baxımını ikisi birlikdə həyata keçirməlidir. Bu proses ata ilə uşağı arasında inkişaf edəcək möhkəm bir bağın əsasını təşkil edir. Uşaqla qurulan əlaqənin özəyi səmimiliyi və intensivliyidir. Körpələr onlara nə qədər səmimi və nə qədər tez-tez qayğı göstərildiyini hiss edirlər.

Bəzən ailədə ilk uşaq doğulanda kişilər depressiv vəziyyətə də düşürlər. Bunun səbəbi körpə doğulana kimi qadının bütün diqqətinin ərinin üzərində olması, körpə doğulduqdan sonra isə bu diqqətin paylanmasıdır. Kişilər bu halda qadın ruhunda nə baş verdiyini bilmirlər, əvvəlki kimi qayğı gözləyirlər, amma özləri qayğı göstərmirlər. Onların atalığa alışmaqları zaman alır. Qadınlar ana olmağa hamiləlik dönəmindən hazırlaşırlar, doğduqdan sonra körpəyə alışmaqları zaman almır. Amma atalar bu prosesdən çətin keçirlər. Psixoloqlar ilk övladı olan kişini özündən sonra ilk qardaşı və ya bacısı olan uşağa da bənzədir. Necə ki, uşaqlar qardaşı və ya bacısı doğulanda valideynlərinin yeni körpəni daha çox sevəcəyini düşünür, kişilər də ilk övladı doğulanda həyat yoldaşının yalnız uşağı sevəcəyini və ona diqqət göstərməyəcəyini düşünür. Lakin tədricən körpəyə alışdıqca, qayğı göstərdikcə atalıq hissi oyanır və bu gündədək ər rolunda olan kişi bundan sonra həm ər, həm də ata olduğunun fərqində olur.

**Lalə Mehralı**

# "Sülh hələ də üfüqdə görünmür"

***"Bu günə qədər Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmamasının yeganə səbəbkarı Ermənistandır, Ermənistanın bu yeni reallığı qəbul etməməsi, əslində müharibəyə hazırlaşmasıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.***



Deputat bildirib ki, əgər, həqiqətən də, Ermənistan regionda sülh istəsəydi, bu günə qədər Ermənistan və Azərbaycan arasında çoxdan sülh bərqərar olmuş olardı: "Bu, hər iki ölkənin maraqları baxımından mühüm əhəmiyyətli hadisəyə çevrilə bilərdi. Ancaq məsələ ondadır ki, Ermənistan kommunikasiyaların açılmamasında israr edir, konstitusiyasında Azərbaycan ərazilərinə olan iddianı götürmək istəmir. Nəhayət, Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması haqqını tanımaq istəmir.

Şübhəsiz ki, kommunikasiyaların açılması deyən zaman hər şeydən əvvəl Zəngəzur dəhlizinin açılmasından söhbət gedir. Çünki Ermənistanın Zəngəzur dəhlizini açması ilə bağlı üzərinə götürdüyü öhdəlik var, bu günə qədər yerinə yetirilmir. Belə olan halda, şübhəsiz ki, sülh də əldə etmək mümkün olmur. Amma bu məsələnin hamısı deyil. Çünki Ermənistan ötən illərdən istifadə edərək öz ordusunu gücləndirməyə çalışır. Öz ordusunun həm şəxsi heyətini, həm texniki konfliktasiyasını, həm də silahlarını yeniləndirməyə çalışır. Bunun hamısı müharibəyə hazırlıqdır. Üstəlik də, son iki ildə

## MÜNASİBƏT

Ermənistanın artıq müdafiə deyil, hücum xarakterli silahlar əldə edir, müxtəlif xarici ölkələrdən silah, hərbi təyinatlı qruplaşmalar cəlb etməklə açıq şəkildə Azərbaycan və bütövlükdə regiona müharibə mesajı vermiş olur. Belə olan halda sülh hələ də üfüqdə görünmür".

"Məsələ ondadır ki, Azərbaycanın çox müasir texniki və innovativ imkanları var ki, istər yerdə, istərsə də kosmosdan Ermənistanın hərəkətlərini izləsin, onun atacağı addımların nə olacağını müəyyənləşdirsin. Ona görə də, şübhəsiz ki, Azərbaycan da bunlara qarşı hazırlıqlıdır. Ermənistanın aqressiyası nəticə etibarilə real toqquşmalara gətirib çıxaracaqsa, sonda yenə Ermənistan daha biabırçı şəkildə uduzmağa məhkum ediləcək. Çünki Azərbaycan ordusu güclü və qüdrətlidir. Azərbaycanın iqtisadiyyatı, diplomatiyası güclüdür. Yeni milli gücün bu komponentlərinin hamısı Azərbaycanın lehinə olduğu halda Ermənistanın müharibəyə hazırlaşması Ermənistanın özünün faciəsinə gətirib çıxara bilər. Ona görə də daha çox bu barədə Ermənistan düşünsün, hansısa xarici ölkənin verdiyi sözlərə, vədlərə ümid olaraq regionda vəziyyəti yenidən gərginləşdirsin. Çünki o cür ölkələrin taleyini biz yaxşı bilirik, Şərqi Avropada da, Cənubi Qafqazda da. Kiminsə proksi gücünə çevrilmək istəyən ölkələrin aqibəti çox aydındır. Onların faciəsi ilə sona çatır" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

SƏS
6 avqust
2024-cü il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Yeni nəsildə daha çox XƏRÇƏNG RİSKİ



***Günü-gündən artan xərçəng xəstəliyi milyonlarla insana təsir edir. Xəstəlik son vaxtlar gəncləri də caynaqları altına alıb. Bir vaxtlar “yaşlıların xəstəliyi” kimi tanınan xərçəng xəstəliyi indi daha çox gənclərdə görülür. Araşdırmalar göstərir ki, xərçəngin 50 yaşdan aşağı olanlarda rast gəlinmə nisbəti 80 faiz artıb. Statistika da onu deməyə imkan verir ki, gənclərdə xərçəng riski artıb. Mütəxəssislərin fikrincə, xərçəng 50 yaşdan aşağı insanlar arasında əsl "epidemiya"dır.***

”BMJ Oncology” jurnalının məlumatına görə, 50 yaşlı qrupda xərçəng nisbəti 1990-2019-cu illər arasında iki dəfə artıb. Son otuz ildə xərçəngdən ölənlərin sayında təxminən 28 faiz artım müşahidə edilir. 2030-cu ilə qədər xərçəng diaqnozlarının sayının 30 faiz artacağı təxmin edilir.

Yeni bir araşdırma göstərdi ki, Y və X nəsillərində mədə xərçəngi də daxil olmaqla 17 növ xərçəngə tutulma riski yaşlı nəsillərə nisbətən daha yüksəkdir. ”Lancet İctimai Sağlamlıq” jurnalında dərc edilən araşdırmada kanserogen maddələrə və digər risk faktorlarına məruz qalmanın keçmişlə müqayisədə bu gün daha yüksək olduğu bildirilib. Amerika Xərçəng Cəmiyyəti (ACS) və Kanadanın Kalqari Universitetinin tədqiqatçıları 1920-1990-cı illər arasında anadan olmuş 7 milyondan çox insanda 24 milyona yaxın insanda 34 xərçəng növü və 25 xərçəng növü üzrə ölüm məlumatlarını təhlil ediblər. Tədqiqatçılar, 1990-cı ildə doğulanların əvvəlki nəsillərə nisbətən daha yüksək xərçəng nisbətlərinə malik olduğunu, yumurtalıq xərçənginin 12 faiz, endometrial xərçəngə tutulma nisbətinin isə ən aşağı olan qruplara nisbətən 169 faiz daha çox olduğunu müəyyən ediblər. 1990-cı ildəki qrupda nazik bağırsaq, qalxanabənzər vəzi, böyrək və böyrək çanaq və mədəaltı vəzi xərçəngləri üçün 1955-ci ildəkindən iki-üç dəfə çox rast gəlinirdi.

Xərçəngin əksər növləri üzrə ölüm nisbətləri gənc nəsillər arasında azalsa və ya sabit qalsa da, gənclərin ”baby boomers” nəslinə nisbətən endometrial xərçəng, qadınlarda qaraciyər və öd yolları xərçəngi, testis və kolorektal xərçənglərdən ölmə ehtimalı daha yüksəkdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2022-ci ildə təxminən 20 milyon insana xərçəng diaqnozu qoyulacaq və 9,7 milyon insan öləcək. Ən çox rast gəlinən növlər ağciyər xərçəngi, qadınlarda döş xərçəngi, kolorektal xərçəng, prostat və mədə xərçəngi olub. Elm adamları artıq gənc nəsillərin bəzi xərçəng növlərinə daha yüksək risk altında olduğunu bilirdilər, lakin son araşdırma siyahıya səkkiz yeni xərçəng növünü əlavə edilib.

Tədqiqatçılar xərçəng səviyyəsinin gənc nəsillər arasında niyə daha yüksək olduğunu tam izah edə bilməsələr də, bunun qismən uşaqlıq və ya gənc yetkinlik dövründəki risklərlə əlaqəli olduğunu söyləyirlər. Mümkün səbəblər arasında ekoloji toksinlərə məruz qalma, piylənmə, oturaq həyat tərzi, doymuş yağ və ultra emal olunmuş qidalarda yüksək olan qeyri-sağlam pəhrizlər və pis yuxu vərdişləri daxildir.

***Qönçə Quliyeva***

# Havanın temperaturu yüksələcək



Növbəti iki gün ərzində Azərbaycanda havanın temperaturu yüksələcək. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, avqustun 6-da Bakıda və Abşeron yarımadasında havanın maksimal temperaturunun 35-38° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında avqustun 6-7-də havanın maksimal temperaturunun Naxçıvan MR və Aran rayonlarında 35-38° isti, bəzi yerlərində 40° isti, dağlıq ərazilərdə 25-30° isti olacağı gözlənilir.

# “Çelsi” 40 milyon avroya futbolçu transfer etdi!

“Çelsi”nin futtbolçusu Konor Qallager karyerasını ”Atletiko”da davam etdirəcək. QOL.az xəbər verir ki, bu barədə insayder Fabrizio Romano məlumat yayıb. Klublar artıq transferlə bağlı razılığa gəliblər. Madrid təmsilçisi ”zadəganlar”a 40 milyon avro ödəyəcək. İngiltərəli oyunçu ilə 5 illik müqavilə imzalanacaq. 24 yaşlı futbolçunun bu gün tibbi müayinədən keçmək üçün İspaniyaya yollanacağı da bildirilib.

Qeyd edək ki, Konor İngiltərə Premyer Liqasının 2023/2024 mövsümündə 37 oyun keçirib, 5 qol vurub və 7 qolun ötürməsini verib. Onun hazırkı klubu ilə müqaviləsi 2025-ci ilin iyunun sonuna kimi qüvvədədir.




## XƏBƏRDARLIQ


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700